NOVRUZ bayramınız mübarək!

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 12 (24.447)

20 mart 2025-ci il, cümə axşamı

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

Qarabağda tonqal yanır

Biz 30 il həsrət çəkdik. Alovlandı qəlbimiz düşmənə nifrət hissi ilə. Xocalıda insanlarımız diri-diri tonqala atılanda hayqırtımız ərşə çıxdı. Kəlbəcərdə evlərin alovu aləmə qalxanda dabanımıza od vurdular, alov ürəyimizi külə döndərdi. Biz illərlə Qarabağda qalanan iki tonqalın harayına çata bilmədik. Həsrətlə baxdıq o yanan tonqallara. Hər yay gələndə çölünə, düzünə od vurdu erməni Qarabağın. Göylərə qalxan tüstü bizi haraya çağırdı. Topxananın tüstüsü səmaya qalxanda bizim də harayımız göyə yüksəldi. Ağdamın, Füzulinin torpağını əkib-biçib, taxılının çörəyini yeyən düşmənin torpağın bağrına od vurduğunu lap yaxından izləmək məcburiyyətində qalanda gözümüzdən axan yaş qəlbimizdəki alovu söndürə bilmədi. Evlərindən zorla çıxarılan insanlar dönüb arxasına baxanda od vurulan ocaqlarını görüb bir gün qayıdacaqları ümidi ilə yaşadılar illərlə. Bu xalq hər il Novruzu qarşılayanda "Gələn il bu vaxt Qarabağda tonqal qalayaq" oldu arzusu. Səbir etdik, ordumuza, Ali Baş Komandanımıza inanıb gözlədik. İllər sonra 44 gündə həsrət bitdi. 2021-ci ilin baharı yurdumuza gələn ən gözəl bahar oldu. Çünki həmin gün Şuşada 3 tonqal qalandı.

Qalib Komandan, Prezident İlham Əliyevin yandırdığı bayram tonqalı bizim əbədi zəfər tonqalımız oldu. Həmin gün o tonqalın istisinə 30 ildir, donan ürəklər isindi. İllərlə həsrət çəkib kor olan gözlər həmin tonqalın işığında nura qərq oldu. Azad Vətənin səmasında ağ göyərçinə dönüb qanad çalan şəhid ruhları şad oldu. Artıq beş ildir ki, yandırılan tonqallar xoş növrağa səsləyir bizi. Hər çərşənbə gələndə, bayram olanda xoşbəxtliyimiz alovlanır. Artıq çiçək açır Kəlbəcər. Dağlar yol verir öz oğul-qızlarına. Zəngilanda, Laçında, Cəbrayılda qalanan bayram tonqallarının ətrafında yallı gedən gənclər birliyimizi, azadlığımızı göstərir. Daha üşümür Şuşa, qərib-qərib boynunu bükmür Zəngilan. Qarabağın hər qarışı bizi səsləyir, gəlin, yurdunuza qayıdın deyir. Qayıdır Şuşa, Laçın. Zəngilan abadlaşır, qucaq açır doğmalarına. Biz xalq olaraq beş ildir, dünyanın ən xoşbəxt xalqına çevrilmişik. Biz qalibik, biz məğruruq, biz alnıaçıq, başı dik gəzirik artıq. Çünki biz qələbə qazanmışıq. Tonqalımızın işığı bütöv Azərbaycanı işıqlandırır. Şuşada səməni cücərdirik, Laçında bayram süfrəsi açırıq, Xankəndidə təhsil alan gənclərimiz bayram tonqalının ətrafında birləşib bir olur. Və biz bu günləri xalqımıza bəxş edən ordumuzla, Ali Baş Komandanımızla qürur duyuruq. Xoşbəxtliyimizin işığı düşməni kor edir artıq. İndi orada yanan od-ocaqlardan çörək ətri gəlir.

Ta qədimdən türk obalarında bir tonqal qalayanda bütün eli-obanı şənliyə, toya çağırardılar. İki tonqal qalayanda bütün eli-obanı düşmənlə mübarizəyə, müharibəyə səsləyərdilər. Üç tonqal qalayanda isə bütün el-oba birliyə dəvət olunardı.

Artıq beş ildir, bizim Vətənimizdə, gözəl Qarabağımızda hər il bir tonqal qalanır. Vətən üçün canından keçib bəy taxtını tabutla, bəy köynəyini bayraqla əvəz edən oğulların toyuna səsləyir hamını. Nişan üzüyü məzar daşına möhürlənən Həmidlərin, bəy xonçası məzarına gətirilən Əlilərin, vüsalı Vətən olan Vüsalların, toy otağı bağlı qalan Babəklərin səsi dünyaya yayılan toyuna...

✍ **Ramiyə ƏKBƏROVA**

Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıram.

Ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq millimənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir. Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur.

Novruz bayramı milli təfəkkürümüzün ayrılmaz parçası kimi ənənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizi sivilizasiyaların qovuşuğundakı qədim mərkəzlərdən biri olaraq tanıtmış misilsiz mənəviyyat xəzinəmizdə Novruz mərasimləri xüsusi mövqeyə malikdir. Baharın gəlişinin əsrlərin yaddaşında iz qoymuş adətlərə uyğun şəkildə bu gün də rəngarəng el şənlikləri ilə Vətənimizin hər bir guşəsində geniş qeyd edilməsi tarixi-mədəni irsə bağlılığımızın parlaq ifadəsidir.

Cəmiyyətdə ünsiyyəti, qarşılıqlı səmimi münasibətləri dərinləşdirən və bizi Azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir. Əminəm ki, bu həmrəylik duyğusu yaz fəslinin yeniləşdirici ab-havası və beşinci ildönümünə hazırlaşdığımız şanlı Zəfərin verdiyi mənəvi güclə vəhdətdə ümumxalq əhəmiyyətli bütün işlərimizin lazımi səviyyədə icrasını təmin edəcəkdir. Bayram sevincini işğaldan azad olunmuş əzəli torpaqlarımızda yaşayan soydaşlarımız əbədi qayıtdıqları öz dədə-baba yurdlarında aydın səma altında əmin-amanlıq içində daim şövqlə qurub yaradacaqlar.

Üzümüzə gələn Novruz bayramının hər evə, hər ocağa firavanlıq, səadət və bol ruzi-bərəkət gətirməsini diləyirəm.

Bayramınız mübarək olsun!

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 mart 2025-ci il

Ədalətin təntənəsi

Artıq beş ildir ki, hər Novruz gələndə insanlarla bayram sevincini paylaşmaq üçün azadlığına qovuşmuş torpaqlarımıza səfər edən dövlət başçımız cənab İlham Əliyevin bu dəfə də Ağdərə rayonunda yerli sakinlərlə keçirdiyi görüşlər, burada həyata keçirdiyi bir sıra mühüm açılışlar Azərbaycanın qazandığı böyük qələbənin gətirdiyi ədalətin daha bir təntənəsi kimi yadda qaldı. Birinci Qarabağ müharibəsində amansız döyüşlərə səhnə olmuş, ancaq günahsız insanların tökülən qanlarının qisasının yalnız 30 ildən sonra alındığı bu torpaqlara bir daha düşmən ayağının dəyməyəcəyi, burada öz doğma torpaqlarına qayıtmış insanların bundan sonra quruculuq, abadlıq və firavanlıq içində yaşayacağını bildirən dövlət başçımız istər Ağdərənin Həsənriz, istərsə də Suqovuşan kəndlərində sakinlərlə görüşü zamanı səsləndirdiyi fikirlər üzərindən illər keçdikdən sonra bu böyük qələbənin tarixi əhəmiyyətinə bir daha diqqətləri yönəltdi.

Ədalət gözlənilmir, onu gərək qazanasan! Prezident cənab İlham Əliyevin Qarabağın düşmən işğalından azad olunmasından sonra dəfələrlə səsləndirdiyi bu fikirlər bugünkü mürəkkəb qlobal geosiyasi aləmdə çox sərrast açar söz kimi yerini tutur. Xüsusən böyük güclərin ən çox da xristian təəssübkeşliyinə söykənən hərtərəfli dəstəyinə arxalanan işğalçı Ermənistanın başlatdığı terror və separatizm əməllərinə qarşı Azərbaycanın verdiyi öldürücü cavab bu gün həmin ədalətin memarı və müəllifi olan Ali Baş Komandanın dilindən Ağdərənin Həsənriz kəndində bir daha xatırlandı. Bu xatırlatma təkcə bir zamanlar Murovdağdan 60 kilometrə yaxın məsafəni piyada keçərək erməni terrorundan canını götürüb qaçan insanların həmin dəhşətli günləri bir də yada salması ilə deyil, eyni zamanda bu gün haradasa Ermənistana hücum silahları peşkəş edib, nəyəsə nail olmaq istəyənlərə də qarşı ciddi bir xəbərdarlıq idi. Bu kənddə yenidən məskunlaşan yerli sakinlərlə birgə Novruz tonqalını yandıran dövlət başçımız istər 44 günlük müharibədə, istərsə də 23 saatlıq antiterror əməliyyatı zamanı Azərbaycanın təkcə Ermənistanla deyil, onları açıq və üstüörtülü şəkildə dəstəkləyən bütün xarici qüvvələrə qarşı savaşdığını bir daha xatırladaraq harada olmasından asılı olmayaraq, bizi gözü götürməyənlərə xalqımızın iradəsini unutmamağı da tövsiyə etdi.

Halbuki bütün dünya artıq bu həqiqəti yaxşı bilir və dünyanın bir çox dövlətlərinin hərbi akademiyalarında müzəffər Ordumuzun parlaq qələbəsinin sirləri öyrənilməyə çalışılır. Bu Novruz bayramı ərəfəsində Ağdərə rayonunun Suqovuşan kəndində olarkən dövlət başçımız tərəfindən də bütün dünyanın bunu yaxşı bildiyi bir daha qeyd olundu. Burada inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak edərək yeni mənzillərə köçən kənd sakinlərinə evlərin açarlarını təqdim edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sakinlərlə bayramlaşaraq onlara xoş günlər arzulayıb, gün-güzəranları ilə maraqlandı və müharibənin elə birinci həftəsində Suqovuşanın azad edilməsinin əhəmiyyəti vurğulandı. Ulu Öndər Heydər Əliyevin əsərləri olmuş Suqovuşan və Sərsəng su anbarlarının o dövrdə bölgə iqtisadiyyatı üçün əhəmiyyətindən də danışan dövlət başçımız işğal dövründə namərd düşmənin hətta su terroruna da əl atıb insanları yayda susuz qoymasını bir daha xatırlatdı. Qışda suyun lazım olmadığı vaxtda onu açıb ölkəmizin ərazilərini məhv edən düşmənin bu əməllərinə də ədalətin təntənəsi olan böyük qələbəmizlə son qoyuldu, Prezidentimizin sözü ilə desək: ***"Separatçıların kitabı bağlandı".*** İndi Bakıda bütün dünyanın gözü önündə qurulmuş ədalət məhkəməsində cavab verən və törətdikləri cinayətlərə görə düşdükləri miskin hal da uca ədalətin təntənəsidir.



Azərbaycanlılar isə öz haqlı yolu ilə həyatlarına davam edir, öz doğma yurdlarına qayıdırlar. Həsənriz kəndində sakinlərlə söhbəti zamanı dövlət başçımız Azərbaycanın beynəlxalq hüquqa dayanan və tamamən qanuni əsaslarla apardığı mübarizədən danışaraq Azərbaycan Bayrağı altında yaşamaq istəyən hər bir kəsin vətəndaş ola biləcəyini də vurğulaması əli qana bulaşmış bütün separatçılara ciddi bir xatırlatma oldu. Bu gün Azərbaycanda yaşamağı qəbul edərək Xankəndidə qalıb və dövlətmizin bütün sosial xidmətlərindən faydalanan ermənisilli vətəndaşlarımızın da olduğunu bildirən Prezident İlham Əliyev çürük siyasi populizmə yuvarlanmış avropalı ermənipərəstlərə də ciddi bir mesaj yollamış oldu. Dövlət başçımız bir daha bildirdi ki, bu bizim xalqımızın böyüklüyüdür və ermənilər öz doğma yurdlarında yaşamış azərbaycanlılara qarşı soyqırımı həyata keçirdikləri halda indi Xankəndidə yaşayan ermənisilli insanlarla kimsənin bir işi yoxdur.

Prezident İlham Əliyev işğal dövründə keçmiş məcburi köçkünlərlə bütün görüşləri zamanı onları nikbin olmaları üçün ümidləndirmiş, bir gün hökmən öz yurdlarına qayıdacaqlarını bildirmişdi. Suqovuşanda sakinlərlə söhbəti zamanı da bunu bir daha xatırladan dövlət başçımız ədalətin təntənəsinə gedən yolun zəfərlərlə dolu olduğunu vurğulayaraq Azərbaycanın iqtisadiyyatının, ordusunun qüdrətlənməsi üçün keçilən 30 illik dövrü də qısaca yada saldı. Uca şəhidlərimizə rəhmət diləyərək dövlətimizin ordu quruculuğunda gördüyü işlərin, xüsusən də bu dövrdə yetişdirilən vətənpərvər gəncliyin qəhrəmanlığının heç zaman unudulmayacağını səsləndirən Prezident İlham Əliyev erməni separatçılığının kökünü kəsən böyük qələbəmizin son onilliklər ərzində tayı-bərabəri olmadığını və bundan sonra da olmayacağını bildirməklə ədalətli nəticənin ən yaxşı nəticə olduğunu bir daha vurğuladı. ***"Bizim qələbəmiz tam idi, mütləq idi, birmənalı idi və vaxtilə "Qarabağ Ermənistandır", – deyən adam bu gün deyir: "Qarabağ Azərbaycandır!"*** – deyən dövlət başçımız bununla həm yerli sakinlərə, həm də okeanın o tayından Cənubi Qafqaza qədər bütün dünyada siyasi gündəliyini erməni sevdası üzərində qurmağa çalışanlara da gec-tez uca ədalətin təntənə qazanacağını bildirdi.

Qədim türk inanclarında Novruz yeni gün, yeni təqvim, yeni həyat deməkdir. Bütün Şimal yarımkürəsinə qədəm qoymuş bu Novruz tam suveren ölkəmizə xüsusi fərəh, təmtəraq və sevinclə gəlir. Bu Novruz Azərbaycanda xüsusən ona görə daha rəngli və gözəldir ki, xalqımız digər bir müqəddəs günü – Ramazan bayramını da bu ərəfədə qeyd edir. Hamı inanır ki, bir vaxtlar yağı ayağı altında inləyərək xilaskarını gözləyən Qarabağ torpaqlarında indi boy atan novruzçiçəyi artıq bir daha düşmən tərəfindən tapdalanmayacaq, buradakı məscidlərdən həmişə azan səsi gələcək. Bu duaların müstəcəb olması, xalqımızın öz Vətənində dövləti, dövlət başçısı ilə xoşbəxt yaşaması da hər kəsin arzusunda olduğu ƏDALƏTİN təntənəsidir.

✍ **Əli CABBAROV**

Naxçıvanda "Konstitusiya və Suverenlik İli"nin ilk ekoloji aksiyası keçirilib

Martın 15-də Naxçıvan Muxtar Respublikasında "Konstitusiya və Suverenlik İli"nin ilk ağacəkmə aksiyası keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov, dövlət və hökumət nümayəndələri, ekokönüllülər, eləcə də ictimaiyyət nümayəndələri aksiyada iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev məlumat verib ki, "Konstitusiya və Suverenlik İli" və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planına uyğun olaraq cari il ərzində muxtar respublikada 408 hektarda 118 mindən çox tingin əkilməsi, 58 hektarda isə yeni bağların salınması nəzərdə tutulub.

Sonra Naxçıvan-Çalxanqala avtomobil yolunun kənarındakı 2,5 hektarlıq ərazidə yeni tut bağı salınıb, ötən il əkilən 2 hektarlıq ərazidə isə bərpa işləri aparılıb. Ümumilikdə, 4,5 hektar sahədə 3 min tut, badam və alma tingləri əkilib.

Səlahiyyətli nümayəndə ötən il ərazidə salınmış mövcud tut bağına da baxış keçirib, ərazidəki ağaclar suvarılıb, ekokönüllülərlə xatirə fotosu çəkdirilib.

Naxçıvanda şəhid övladları üçün bayram tədbiri olub

Martın 17-də Naxçıvan Muxtar Respublikasında yaşayan şəhid övladları üçün Novruz bayramına həsr olunmuş "Yurdumuza bahar gəlir!" adlı tədbir keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid ailələrini Novruz bayramı münasibətilə təbrik edib, Novruzun xalqımızın milli dəyərlərini və ənənələrini yaşadan, yeni başlanğıc, birlik və dirçəliş rəmzi olan mühüm bayramlardan biri olduğunu qeyd edib.

Səlahiyyətli nümayəndə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəhid ailələrinə hər zaman göstərdiyi yüksək diqqət və qayğıdan danışıb, dövlətimiz tərəfindən Vətən uğrunda canını fəda edən qəhrəmanlarımızın ailələrinə sahib çıxıldığını, onların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atıldığını bildirib.

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz torpaqlarımızı işğaldan azad edərək tarixi ədaləti bərpa edib. Bu gün biz Novruzu qalib xalq kimi qeyd edirik. Qüdrətli Ordumuzun qazandığı şanlı Zəfər sayəsində artıq Qarabağda da bahar çiçəklənir, doğma yurdlarımıza həyat qayıdır," – deyə Fuad Nəcəfli vurğulayıb.

Bugünkü tədbiri də Vətən uğrunda canını qurban verən igidlərimizin əmanətlərinə olan diqqət və qayğı kimi dəyərləndirən "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri, şəhid baş leytenant Amin Gülməmmədovun atası Mayis Gülməmmədov tədbir iştirakçılarını, xüsusilə də şəhid övladlarını Novruz bayramı münasibətilə təbrik edib, onlara sağlam, uğurlu və xoşbəxt gələcək arzulayıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının, "APF" şirkətlər qrupunun və "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə şəhid övladlarına hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib. Bayram şənliyində Naxçıvan Dövlət Uşaq Teatrının aktyorları tərəfindən şəhid övladları üçün əyləncəli oyunlar və səhnəciklər nümayiş olunub.

Naxçıvanda Bahar festivalı keçirilir

Martın 18-də "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində Bahar festivalı start götürüb.

Festivalda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Əcəmi seyrəngahındakı büstü ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Milli geyimli "Bahar qız" bayram münasibətilə iştirakçılara təbriklərini çatdırıb, festivalı açıq elan edib. El ağsaqqalı Dədə Qorqud baharın gəlişi münasibətilə xeyir-dua verib, bayram tonqalını alovlandırıb.

"Şərur" Xalq Yallı Ansamblı tərəfindən milli rəqslərimizdən ibarət bədii kompozisiya təqdim olunub, Naxçıvan Dövlət Uşaq Teatrının aktyorları Novruz bayramının milli atributlarından sayılan "Kosa və keçəl" səhnəciyini, Naxçıvan Dövlət Kukla Teatrının kollektivi isə "Saçları səməni oğlan" tamaşasını nümayiş etdirib.

Festival iştirakçıları Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, eləcə də istedadlı şəxslərin təşkil etdikləri müxtəlif sənətkarlıq nümunələri və əl işlərindən ibarət sərgi ilə, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Tullantıları tinglərə dəyiş" aksiyası ilə tanış olublar.

Festivalda muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən ictimai iaşə xidməti də təşkil edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə çıxış edərək bildirib ki, xalqımızın milli dəyərləri içərisində Novruz bayramı xüsusi yer tutur. Bayramın mahiyyətini ifadə edən sülh, quruculuq və həmrəylik məfkurəsi Azərbaycan xalqının milli ruhunun, yaddaşının təzahürü, müstəqilliyimizin və dövlətçiliyimizin təntənəsidir. Novruz bayramı ölkəmizdə iqtisadi yüksəlişlə həmahəng qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalqımız Novruzu sabitlik, inkişaf və rifah şəraitində qarşılayır.

Qeyd edilib ki, ölkəmizin ümumi inkişafı onun hər bir bölgəsində olduğu kimi, Naxçıvanda da sosial-iqtisadi həyatın bütün sahələrini əhatə edib. Xüsusilə də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın ardıcıl şəkildə icrası muxtar respublikanı yeni inkişaf hədəflərinə doğru uğurla aparır. Dövlət Proqramına uyğun olaraq bu il İğdır-Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi

ardı 4-cü səhifədə

ölkə Prezidentinin Naxçıvana növbəti diqqətinin daha bir ifadəsi olmaqla muxtar respublikada enerji təhlükəsizliyinə ciddi töhfələr verəcək.

"2025-ci ildə Naxçıvan Muxtar Respublikasında mühüm infrastruktur tədbirləri həyata keçiriləcək. Avtomobil yolları yenidən qurulacaq, məktəb binalarının, uşaq bağçalarının inşasına başlanacaq, eləcə də tarixi abidələrdə beynəlxalq mütəxəssislər tərəfindən bərpa-konservasiya işləri həyata keçiriləcək. Hazırda muxtar respublikada avtomobil yollarının yenidən qurulması ilə bağlı ümumi dəyəri 80 milyon manatdan artıq olan satınalma müsabiqələri davam etdirilir", – deyən səlahiyyətli nümayəndə vurğulayıb ki, il ərzində 10 milyon manatdan artıq tibbi avadanlıqların alınması nəzərdə tutulur. Bu il "Araz-1" və "Araz-2" nasos stansiyalarının, "Bənəniyar" su anbarının sugətirici kanalının yenidən qurulması aparılacaq ki, bu da əkin sahələrinin dayanıqlı su təminatına imkan verəcək. Elektrik enerjisi təminatının yaxşılaşdırılması istiqamətində də tədbirlər görülür. Hazırda ümumi dəyəri 40 milyon manat olan elektrik verilişi xətlərinin inşası ilə bağlı satınalma müsabiqəsi davam etdirilir. Bununla yanaşı, il ərzində muxtar respublikada 3 yarımstansiyanın, 20 kənddə elektrik verilişi sisteminin, 30 meqavat gücündə Günəş elektrik stansiyasının inşası nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, mənzil bazarında tələbatın artması Naxçıvan şəhərində yeni yaşayış komplekslərinin inşasını da zərurətə çevirib. Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Naxçıvan şəhərində 5 hektar sahədə yaşayış kompleksinin tikintisi ilə bağlı layihələndirmə işləri aparılır. Bununla yanaşı, hazırda Naxçıvan şəhərində sahibkarlar tərəfindən 2 yeni yaşayış kompleksi də inşa olunur.

Bütün bunlar onu deməyə əsas verir ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və qətiyyətli siyasətinin nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası daha böyük inkişafa qovuşacaq. Buna misal olaraq Azərbaycan Respublikası İqtisadi Şurasının Naxçıvanın Azad İqtisadi Zona olması ilə bağlı yeni qərarları var. Bu sahədə də işlərin qətiyyətlə aparıldığını vurğulayan Fuad Nəcəfli bu əziz bayram günündə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini dərin hörmət və ehtiramla yad edib, şəhid ailələrini, qazilərimizi, bütün muxtar respublika əhalisini təbrik edib, sağlıq və səadət arzulayıb.

Bahar festivalı Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının rəqs nömrələri və Azərbaycan Respublikasının Xalq artisti Gülyaz Məmmədovanın ifaları ilə davam edib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Naxçıvan şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə baş tutan Bahar festivalı martın 23-dək davam edəcək.

Ordubad şəhərindəki Cümə məscidi təmir-bərpadan sonra istifadəyə verilib

Martın 18-də Ordubad şəhərində yerləşən XVII əsrə aid Cümə məscidi təmir-bərpadan sonra istifadəyə verilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət, hökumət və ictimaiyyət nümayəndələri iştirak edib.

Əvvəlcə məscid binası ilə tanışlıq olub.

Sonra Ordubad rayonunun axundu Yusif Rüstəmov "Qurani-Kərim"dən ayələr oxuyub. Səlahiyyətli nümayəndə Cümə məscidinin istifadəyə verilməsi münasibətilə məscidə "Qurani-Kərim" hədiyyə edib, bu əlamətdar hadisənin sülhün, əmin-amanlığın təmin olunması naminə dövlətə, dövlətçiliyə xidmət edəcəyini vurğulayıb.

Axund Yusif Rüstəmov Cümə məscidinin təmir-bərpadan sonra istifadəyə verilməsini rayonun ictimai həyatında mühüm tarixi hadisə kimi dəyərləndirib, qarşıdan gələn Novruz, Ramazan bayramları münasibətilə təbriklərini çatdırıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qeyd edib ki, XVII əsrə aid tarixi-memarlıq abidəsi sayılan Cümə məscidi xalqımıza məxsus ən dəyərli mirasdır. Məscidin bərpası üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Nazirlər Kabinetinə məlumat verilib, Mədəniyyət Nazirliyi, eləcə də bir sıra bərpaçı qurumlarla məsləhətləşmələr aparılıb.

Vurğulanıb ki, Naxçıvanın əvvəlki idarəçiliyinin yarıtmaz fəaliyyəti nəticəsində bir sıra tarixi-mədəni abidələrin, o cümlədən Qarabağlar, Gülüstan türbələrinin, Zaviyə, Cümə məscidlərinin tarixi əhəmiyyətinə ciddi zərər dəyib. Azərbaycan tarixində, mədəniyyətində heç bir təcrübəsi olmayan şirkətlərin apardığı "restavrasiya" nəticəsində abidələr ilkin formasını tamamilə itirib. Səlahiyyətli nümayəndə bildirib ki, Ordubad Azərbaycanın siyasi, mədəni və iqtisadi həyatında mühüm yer tutur. Ordubadlıların Azərbaycan dövlətçiliyində böyük xidmətləri olub. Təsadüfi deyildir ki, Ümummilli Liderimiz Heydər Əliyev Ordubadı "Azərbaycanın incisi" adlandırıb. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb, qoruğun sərhədləri müəyyənləşdirilib, ərazidə olan tarixi abidələrin bərpası nəzərdə tutulub. Rayonda yerləşən "Ərbabın iş yeri" və ona bitişik tarixi binanın layihə-smeta sənədləri hazırlanıb, yaxın vaxtlarda bərpasına başlanılacaq.

Qeyd olunub ki, Ordubad şəhərinin Baş planı da hazırlanıb. Ordubad Su Elektrik Stansiyasının əvvəlki dövrdə inşası zamanı layihəsi hazırlanmadığı üçün hazırda tikintisində gecikmələr yaranıb. Yaxın vaxtlarda həmin məsələ də həllini tapacaq. Gələcəkdə Ordubadın Sərşəhər məscidinin də bərpası nəzərdə tutulub. Bərpa-quruculuq prosesində əsas məqsəd əvvəlki dövrdən fərqli olaraq kəmiyyətdən çox, keyfiyyətə önəm verilməsidir.

Səlahiyyətli nümayəndə Cümə məscidinin istifadəyə verilməsi, eləcə də Novruz, Ramazan bayramları münasibətilə rayon ictimaiyyətini təbrik edib, onlara cansağlığı, işlərində uğurlar arzulayıb.

Ordubad Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, rayon ağsaqqalı Fərrux Nağızadə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafa nail olduğunu, Ordubadın da bu inkişafdan pay aldığını vurğulayıb, Cümə məscidinin bərpasına görə rayon ziyalıları adından minnətdarlıq edib.

Fuad Nəcəfli: Naxçıvan şəhərinin Baş planının hazırlanması ilə bağlı işlər yekunlaşmaq üzrədir

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ordubad şəhərindəki Cümə məscidinin açılışından sonra jurnalistlərə müsahibə verib. O bildirib ki, Ordubad şəhərindəki Cümə məscidi 2023-2027-ci illər üçün nəzərdə tutulan Dövlət Proqramının hədəf memarlıq abidələrindən biri idi.

Fuad Nəcəfli qeyd edib ki, 2023-cü ildə aparılan araşdırmalar nəticəsində Naxçıvan Muxtar Respublikasında heç bir şəhərin Baş planının yeni olmadığı müəyyən olunub. Hətta Naxçıvan şəhərinin ən son Baş planı 1983-cü ildə tərtib edilib və bu da müasir dövrün tələblərinə cavab vermirdi. Buna görə də Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığı ilə şəhərlərin yeni Baş planlarının hazırlanmasına start verilib.

Səlahiyyətli nümayəndənin sözlərinə görə, Naxçıvan Muxtar Respublikasında əsas şəhərlərin Baş planlarının işlənməsi Dövlət Proqramı çərçivəsində prioritet istiqamət kimi müəyyən edilib. Naxçıvan, Ordubad və Şahbuz şəhərlərində bu istiqamətdə işlər görülür və artıq Naxçıvan şəhərinin Baş planının hazırlanması yekunlaşmaq üzrədir. Ordubad və Şahbuz şəhərlərində isə bu proses İsveçrənin "SA Partner" şirkəti tərəfindən həyata keçirilir və təxminən, bir il müddətinə tamamlanması gözlənilir. İşlər sürətlə aparılır, şəhərlərin planlaşdırılması zamanı memarlıq abidələri, yaşayış massivləri və iş yerləri nəzərə alınır. Planlaşdırma Avropa standartlarına uyğun şəkildə rəqəmsallaşdırılaraq sənədləşdirilir.

Ordubadın əsas tarixi abidələrindən biri olan Cümə məscidinin bərpasına xüsusi diqqət yetirildiyini vurğulayan Fuad Nəcəfli, burada əvvəlki dövrlərdə aparılan nöqsanlı idarəetmə nəticəsində tarixi-mədəni irsə ciddi ziyan dəydiyini qeyd edib. O bildirib ki, mümkün qədər bu izləri qoruyaraq məscidin təmirini uğurla başa çatdırmaq mümkün olub.

"Sevinirəm ki, uzun müddət davam edən bərpa prosesindən sonra bu gün Ordubad sakinlərinə Cümə məscidinin açılışını hədiyyə edə bilirik. Düşünürəm ki, bu, Ramazan ayında ordubadlıları sevindirəcək. Lakin işlər bununla yekunlaşmır. Hazırda Ordubad şəhərində yerləşən digər tarixi abidələrin, o cümlədən Sərşəhər məscidinin layihələndirilməsi və bərpası ilə bağlı işlər aparılır," – deyə Fuad Nəcəfli vurğulayıb.

Naxçıvanda şəhid və qazi övladlarına, sosial qayğıya ehtiyacı olan uşaqlara bayram hədiyyələri təqdim edilib

Martın 19-da Naxçıvan Dövlət Milli Dram Teatrında şəhid və qazi övladları, həmçinin sosial qayğıya ehtiyacı olan uşaqlarla bayram görüşü keçirilib.

Əvvəlcə teatrın kollektivi "Cırtdan nağıllar aləmində" tamaşasını təqdim edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli uşaqlarla birlikdə tamaşanı izləyib. Səlahiyyətli nümayəndə çıxış edərək bildirib ki, Novruz bayramı xalqımızın ən qədim bayramlarından biridir. Min illərdir, Azərbaycan xalqı adət-ənənələrini Novruz ətrafında birləşdirir. Milli adət-ənənələrimizin bir hissəsi olan bu bayram yeni başlanğıclar, sevinc, şadlıq rəmzi daşıyır.

Teatrın kollektivinə uğurlu tamaşaya görə təşəkkür edən səlahiyyətli nümayəndə balacalara bayram təbriklərini və xoş arzularını çatdırıb.

Sonra tədbirdə iştirak edən uşaqlar səhnəyə dəvət olunub, onlara bayram hədiyyələri verilib, xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının dəstəyi ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən muxtar respublikada yaşayan şəhid və qazi övladlarına, həmçinin sosial qayğıya ehtiyacı olan 500 uşağa Novruz bayramı hədiyyəsinin verilməsi nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində videoformatda müşavirə keçirilib

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya resurs bazalarının ölkənin analoji informasiya sistemləri və ehtiyatlarına inteqrasiyasının mövcud vəziyyətinin müzakirəsi ilə bağlı Baş nazir Ceyhun Cəlilovun sədrliyi ilə videoformatda müşavirə keçirilib.

Müşavirəni giriş sözü ilə açan Baş nazir bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin 2022-ci ilin sonundan etibarən Naxçıvan Muxtar Respublikasında idarəçiliyin təkmilləşdirilməsi ilə bağlı verdiyi tapşırıqların fundamentində dayanan əsas məsələ ölkənin müvafiq mərkəzi icra və icra orqanlarının proseslərə inteqrasiyasıdır. Bu həm də hüquqi, normativ-hüquqi bazanın inteqrasiyaya uyğunlaşması və təşkilati məsələlərin inteqrasiyasıdır. Cənab Prezidentin tapşırıqları ilə bu istiqamətdə ölkədə çox böyük islahatlar həyata keçirilib. Əsaslı dəyişikliklər məhz proseslərin avtomatlaşdırılması, əlçatanlığın təmin edilməsi və elektron reyestrlər, resurslar hesabına vətəndaşlara dövlət xidmətlərinin ən rahat və sadə üsulla göstərilməsindən ibarət olmuşdur. Ölkədə həyata keçirilən bu islahatların Naxçıvan Muxtar Respublikasında da tətbiqi davam edir. Bu istiqamətdə ötən 2 il ərzində xeyli işlər görülmüşdür. Artıq Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən göstərilən xidmətlər üzrə "Asan indeks"in nəticələri müsbət dinamikada davam edir.

"Bütün qurumlar göstərdiyi dövlət xidmətlərini və proseslərini elektronlaşdırmalı, avtomatlaşdırmalı, ölkənin müvafiq informasiya resurslarına inteqrasiyasını daha da sürətləndirməlidir", – deyən Baş nazir bildirib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2024-cü il 24 fevral tarixdə müvafiq Sərəncam imzalandı və Sərəncamda qeyd edildi ki, ölkənin dövlət orqanları tərəfindən formalaşdırılmış informasiya sistemlərinə və ehtiyatlarına Naxçıvan Muxtar Respublikasının aidiyyəti dövlət orqanları tərəfindən proseslərin inteqrasiyası məqsədilə müvafiq təhlillər həyata keçirilsin və cari vəziyyəti təhlil edilsin.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov Nazirlər Kabinetinə müxtəlif icra orqanları tərəfindən 104 xidmətlə bağlı məlumatlar daxil edildiyini diqqətə çatdırıb. Qeyd edilib ki, artıq ölkədə tətbiq edilən islahatların nəticəsində formalaşdırılmış informasiya sistemi Naxçıvan Muxtar Respublikasında müəyyən istiqamətlərdə tətbiq edilir. Bir sıra istiqamətlərdə bəzi pilot layihələri muxtar respublikada həyata keçirilib ölkəyə ötürmək təşəbbüsü irəli sürülməlidir.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Süleyman Nemətov çıxış edərək bildirib ki, Daxili İşlər Nazirliyində vətəndaşlar dövlət xidmətləri haqqında ətraflı məlumat əldə etmək imkanlarının şəffaf və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə 25 dövlət xidməti elektron reyestrdə qeydiyyata alınmışdır. Vətəndaşlara göstərilən dövlət xidmətlərindən 6-sı Daxili İşlər Nazirliyi, 7-si "Asan xidmət" mərkəzi, 8-i Dövlət Yol Polisi İdarəsi, 3-ü ərazi polis orqanlarında, 1-i mühafizə idarəsi tərəfindən həyata keçirilir. Qeyd olunan dövlət xidmətlərinə vətəndaşların əlçatanlığının təmin edilməsi məqsədilə elektron reyestrə məlumat yerləşdirilmişdir. Həmçinin digər dövlət qurumlarının informasiya ehtiyatları sistemləri ilə inteqrasiya edilmişdir.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Abbas İsmayılov qeyd etmişdir ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin idarə etdiyi Lisenziya və icazələr portalında Naxçıvan bölməsinin yaradılması və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən verilən lisenziyaların və vətəndaşların müraciətlərinin portala daxil edilməsi üzrə işlər aparılmaqdadır. Rəqəmsal sənəd dövriyyəsi alt sisteminin yaradılması üçün yeni server avadanlıqları alınmış və nazirlikdə mövcud daxili sənəd dövriyyəsi (DOCNET) sistemi yeniləndikdən sonra Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi və onun struktur bölmələri ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və onun struktur bölmələri arasında birbaşa sənəd dövriyyəsi təmin ediləcəkdir. Hal-hazırda daxili sənəd dövriyyəsinin qurulması davam etdirilir və cari ilin aprel ayı ərzində yekunlaşması gözlənilir.

Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Fərid Bağırzadə qeyd edib ki, ümumilikdə, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 159 xidmət göstərilir ki, Naxçıvan Muxtar Respublikasında 141 xidmət tam şəkildə tətbiq edilir. Bunlardan 83-ü elektron, 42-si praktiki qaydada həyata keçirilməkdədir. Muxtar respublika üzrə bütün məlumat bazası Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sisteminə tam şəkildə inteqrasiya olunmuş, muxtar respublikanın bütün rayonlarında qeyd olunan bütün istiqamətlər üzrə bir pəncərə və e-sosial internet portalı vasitəsilə açılış şəraitində xidmət edilməkdədir.

Növbəti dövrdə qeyd olunan istiqamət üzrə işlərin davam etdirilməsinin zəruriliyi vurğulanmış, Nazirlər Kabineti tərəfindən inteqrasiyanın davamlı aparılması üçün zəruri resursların cəlb ediləcəyi bildirilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti

Naxçıvan Hərbi Kollecində Novruz bayramı qeyd olunub

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində Novruz bayramına həsr olunmuş "Sevinc və sülh: Novruz təntənəsi!" adlı tədbir keçirilib.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Sonra Novruz bayramının adət-ənənələrindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova çıxış edərək bildirib ki, bu gün Azərbaycan əsgərinin qalibiyyəti Ali Baş Komandanın uzaqgörən siyasətinin təzahürüdür. Xalqımız beş ildir, fərqli Novruz bayramı keçirir. Artıq milli bayramımız işğaldan azad olunmuş Qarabağımızda qeyd olunur. Xalqımızın bu günə hər zaman inamı olub.

Günay Nəzərova Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin salamlarını və təbriklərini hərbi kollecin şəxsi heyətinə çatdırıb.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxış edərək bildirib ki, cari tədris ilindən Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri sırasına belə bir vacib, önəmli, strateji əhəmiyyətli hərbi təhsil müəssisəsi də qoşulub. Bu isə Prezident İlham Əliyevin muxtar respublikamızdakı təhsil zəncirini ən mükəmməl tamamlayan müdrik addımlarındandır. Naxçıvan yetirdiyi hərbçi sərkərdələri və eyni zamanda İkinci Qarabağ müharibəsində böyük qəhrəmanlıq nümunələri ilə hərb tariximizdə silinməz iz buraxıb. Məhz bu baxımdan hərbi təhsil müəssisəsi qəhrəmanlıq irsimizin yaşadılmasında müstəsna rol oynayacaq.

Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı misilsiz zəfərdən, Vətən yolunda döyüşə atılan oğulların igidliyindən danışıb, təbriklərini ifadə edib.

Tədbirdə səlahiyyətli nümayəndəliyin əməkdaşı Günay Nəzərovaya Milli Müdafiə Universitetinin rektoru, general-mayor Gündüz Əbdülovun adından təşəkkürnamə və rəsm əsəri təqdim olunub.

Sonra hərbi kollecin həyətində 4 ədəd sərv ağacı əkilib, bayram tonqalı alovlandırılıb, kursantlar tərəfindən şeirlər, musiqilər səsləndirilib, Kosa, Keçəl obrazları nümayiş etdirilib və milli rəqslərimiz ifa olunub.

NOVRUZ bayramınız mübarək!

Naxçıvanda Novruz adət-ənənələri və milli dəyərlərimiz

Azərbaycan xalqının ən qədim bayramları içərisində Novruz bayramı öz həyatiliyi ilə daha çox seçilir, fərqlənir. Novruz bayramlar bayramı, şənliklər şənliyi, xalqın ümumi sevincidir. Bu bayram xalq bayramlarımızın bəzilərinin özülü-bünövrəsi, başının tacı, zirvəsidir.

Bəzi tədqiqatçılar ən gözəl milli-mənəvi dəyərlərimizdən biri olan Novruz bayramının əsrlər öncə yarandığını söyləyirlər. Belə qənaətə gəlinir ki, Novruzun izləri Zərdüşt Peyğəmbərin dövründən əvvələ gedib çıxır. Belə qədim tarixə malik olan bu bayram böyük el şənliyi kimi Azərbaycanın hər bir bölgəsində təmtəraqla qeyd olunur.

Milli-mənəvi dəyərlərimizin ən böyük hamisi olan Ulu Öndərimiz Heydər Əliyevin dediyi kimi: ***"...İndi, Azərbaycan dövlət müstəqilliyini, milli azadlığını əldə edəndən sonra Novruz bizim dövlət bayramımız olubdur. Buna görə də xalqımız gözəl ənənələrimizi son illərdə sürətlə bərpa edərək respublikamız, xalqımız bu bayramı ildən-ilə daha da şən, gözəl, yüksək səviyyədə keçirir".***

Özündə çox qiymətli tarixi izləri qoruyub saxlayan ulu diyarımız Naxçıvanda da bu bayram lap qədim dövrlərdən keçirilir. Bu gün də bölgəmizin hər bir guşəsində Novruz şənliklərі əsl toy-bayrama çevirilib. Bu şənliklərdə qədim adət-ənənələrə, etiqadlara ciddi əməl olunur.

Novruz bayramının baharla əlaqəsinə dair çoxlu folklor nümunələrimiz də yaşamaqdadır. Çünki baharın gəlişi torpağın oyanışıdır. Yada salsaq ki, ulu babalarımız tarixən maldarlıqla, əkinçiliklə məşğul olublar, onda yazın, təzə ilin – Novruzun gəlişinə onların daha çox sevindiklərinə şübhə yeri qalmaz.

Baharın gəlişi ilə bağlı çoxlu xalq oyunları, meydan tamaşaları, adətlər icra olunardı ki, onların bir çoxu bu gün də diyarımızda yaşamaqdadır. "Kosa-kosa", "Qoduqodu", "Qəzmədaş", "Siçan-pişik", "Dizədöymə", "Gizlənqaç", "Gözbağlayıcı", "Bənövşə-bəndə düşə", "Topaldıqaç", "Qayışagirmə" və sair oyunlar milli-mənəvi dəyərlərimiz kimi indi də qorunur, onların təbliği, gələcək nəsillərə ötürülməsi diqqət mərkəzində saxlanılır.

Bu bayramın rəmzlərindən biri səmənidir. Bayram ərəfəsində elə bir ev tapmaq olmaz ki, orada səməni göyərdilməsin. Səməni ilə bağlı daha bir adət səməni halvası bişirməkdir. Ancaq asan olmadığı üçün hər adam onu bişirə bilməz. Ona görə də səməni halvasını da xüsusi səriştəsi olan qadınlar bişirərdi. Onun içinə cəviz, fındıq tökərdilər. Qonşular da bəzəkli xonça düzəldib aparardılar və "Allah qəbul eləsin", – deyib həyətə düzərdilər. Qaydaya görə, həyətə düzülən xonçalar evə qoyulmazdı. Belə ki, həyətdə ayaq qoymağa yer tapılmazdı. Gecə hamı oturub gözləyərdi ki, filankəsin səmənisi qəbul olacaq, ya olmayacaq. Əgər səməni şirin çıxsa, deməli, qəbul olunub, əgər şirin deyilsə, deməli, qəbul olmayıb.

Yeri gəlmişkən qeyd edək ki, Novruzda bişirilən şirniyyatlar içərisində Ordubad paxlavasının, şəkərburasının, cəvizli Ordubad dürməyinin öz yeri, öz dad-tamı var. El arasında sucuq kimi tanınan şirniyyat növü Ordubad rayonunda daha gözəl bişirilir. İçərisinə cəviz, yaxud badam ləpəsi qoyulan bu şirniyyatlara indi Azərbaycanın müxtəlif yerlərində rast gəlmək olar.

Bağlar diyarında yaşanan Novruz adətlərindən biri də "Xan bəzəmə"dir. "Xan bəzəmə" mərasimi hər il Novruz bayramı günü keçirilir. Novruzda Ordubadda üç gün ard-arda Xan bəzəyirlər. Bir nəfəri Xan seçirlər. Onu əməlli-başlı əsl xan kimi geyindirirlər. Başına tac qoyurlar. Meydanda hündür bir taxt düzəldib Xanı oturdurlar. İki nəfər balaca uşaq Xanı yelpiklə yelləyir. Kim istəyirsə, könüllü ona nökər, qulluqçu olur.

Qız-gəlinlər, qonaqlar meydanın dövrəsinə düzülüb tamaşa edirlər. Xanın yanına bəzənmiş xonçalar, səmənilər düzürlər. Xan əmr verir. Hamı çalıb oynayır. Hərə öz qabiliyyətini nümayiş etdirir. Burada Təlxəklər də olur. Onlar Xanı güldürməyə çalışırlar. Xan isə gərək gülməsin. Əgər gülsə, onu suya basırlar, təzə Xan seçirlər. Meydanda bir qab qoyurlar. Hamı ora xələt atır. Əgər Xan üç gün vəzifəsinin öhdəsindən yaxşı gəlsə, bu xələtlər ona çatır.

Çərşənbə axşamı Ordubad rayonunun kəndlərində dağların başında tonqal qalamaq ənənəsi də var. Kəndin cavanları əvvəlcədən hazırlıq işləri görər, lazım olan yanacaqları dağın zirvəsinə qaldırarlar. Gün batana yaxın tonqallar alovlanar, qonşu kəndlərin uşaqları da öz tonqallarını çatarlar. Bütün dağların zirvələrində ulu Dədə Qorqudun dediyi kimi, bayram, şənlik tonqalları el bayramının təntənəsindən soraq verər.

Ordubad rayonunda İlaxır çərşənbədən bir gün sonra suüstü at yarışı olur. Kimin atı qalib gələrsə, o adama hədiyyə verilir.

Dini inanclara görə, qaba un qoyub həyətdə uca bir yerə qoyursan. Xızır Peyğəmbər gəlib əlini basır içinə ruzi-bərəkət bol olsun deyə.

Novruzda axır çərşənbə günü Naxçıvanda "İlaxır" və ya "Yeddiləvin"adı altında bayram edilir. "İlaxır" ilin axırı, "yeddiləvin" isə "yeddi növ", "yeddi cür" deməkdir. Buna "löyün" də deyirlər. Bu bayramda bazardan hər nə alırsansa, yeddi növ alınmalıdır. Son çərşənbə günü nişanlı qızlara pay aparmaq adəti də diqqəti cəlb edir. Həmin gün xonçalar bəzənər, cəviz, fındıq, püstə, kişmiş, şabalıd, cürbəcür meyvələr, hədiyyələr, boyanmış yumurtalar tabaqlara yığılıb nişanlı qızlara aparılar. Çox zaman qırmızı lent bağlanmış səmənilər də apararlar. Bu da həmin evə xeyir-bərəkət, ruzi gətirsin deyə mənalandırılır.

Naxçıvanın bütün bölgələrində Novruz axşamının səhəri günü ağsaqqalları, ağbirçəkləri görmək adəti uzun illərdir, yaşamaqdadır. Ancaq bir sıra rayonlarımızda, kəndlərimizdə bu adət-ənənə Novruz günü deyil, ilin son çərşənbəsi günü olur. Səhər tezdən qız-gəlinlər axar su üstünə, bulaq başına gedər, evə su gətirər, həmin suyu həyət-bacaya səpərlər. Sonra cavanlar bir alma ilə də olsa, qonşuları, ağbirçəklərin bayramını təbrik edərlər. Çərşənbə günü hər evdə çoxlu yumurta boyayarlar. Həmin yumurtaları bayramçalıq kimi qonşu uşaqlarına vererlər. Çərşənbə günü kəndlərimizin çoxunda Novruz günündə olduğu kimi plov bişirərlər. Plovun "üzgözünü" isə hər yerdə fərqli hazırlayırlar. Kimisi əti göy-göyərti ilə bişirib plovun yanına qoyar, kimisi də ətin yanına qovrulmuş, bişirilmiş ərik, albuxara, xurma, şabalıd və sair qoyar.

Çərşənbə günü həm Naxçıvan şəhərində, həm də kəndlərimizdə gün batanda tonqal qalamaq, od yandırmaq adəti var. Həyətlərdə kol-kosları yığıb yandırarlar. Sonra o tonqalın üstündən tullanıb deyərlər:

Ağırlığım, uğurluğum
Bu tonqala töküsün.

Bir sıra kəndlərimizdə çərşənbə axşamı Xıdır bayramında olduğu kimi, qapılara papaq atmaq adəti indi də yaşayır. Uşaqlar, yeniyetmələr axşam qonşuların və yaxınların evlərinə şal, papaq atarlar. Ev sahibləri həmin yaylıqlara, papaqlara pay qoyarlar. Bayram şirniyyatı, cəviz, fındıq, şabalıd, alma və sair. Çərşənbə günü qapı pusmalar da olur. Ona görə də gərək çərşənbə axşamlarında, Novruz günündən ağızdan pis söz çıxmaya. Qonşular ürəklərində niyyət tutub, qapılardan qulaq asarlar. Eşitdikləri ilk söz xeyirli sözdürsə, deməк, arzusu həyata keçəcək.

Bayrama bir neçə gün qalmış evin yorğan-döşəyini, pal-paltarını bayıra töküb təmizləmək adəti xalqımızın təmizliklə bağlı inanclarındandır. Xalqda belə bir inam var ki, Novruzda il təzələndiyi kimi, hər şey təzələnməli, təmiz olmalıdır. Elə buna görə də bayram ərəfəsində hər bir uşağa təzə paltar alınır, uşaqlar bir dəsmalla, köynəklə, corabla olsa belə sevindirilir. Gənc qızlar çərşənbə axşamı qonşu evlərə gələr, əllərində bəzən iki stəkan, fincan gətirərlər. Ancaq danışmazlar, ev sahibi onun niyyət tutduğunu bilib, o qabların birinə su tökər. Ondan sonra həmin qız danışar, niyyətinin baş tutub-tutmayacağını söyləyər.

Qeyd edək ki, milli adət-ənənələrimizi, milli dəyərlərimizi qoruyub saxlamaq baxımından Naxçıvan həmişə seçilib, fərqlənir. Milli kökə və adət-ənənələrə qədim diyarımızın sakinləri qırılmaz tellərlə bağlı olduğu üçün bundan sonra da qədim, həmişəyaşar el bayramımız Novruzu daha böyük sevinclə qeyd edəcək, onu qoruyub gələcək nəsillərə ən dəyərli milli bayram kimi çatdıracaqlar.

Sədaqət NEMƏTOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Əcnəbi tələbələr Novruz təəssüratlarını dilə gətirdilər

Baharın gəlişi bizə həm də xalqımızın ən əziz bayramı olan Novruzu gətirir. Bu bayram o qədər gözəldir ki, təkcə yerli əhali deyil, ölkəmizdə yaşayan xarici vətəndaşlar da Novruzu xüsusi qeyd edir. Biz də elə həmin vətəndaşlardan biri, muxtar respublikamızda ikinci Novruzunu qeyd edən Emre Bayrakçekənlə həmsöhbət oluruq. Türkiyənin Tekirdağ şəhərindən gələrək burada Naxçıvan Dövlət Universitetinin Tibb ixtisasında təhsil alan 35 yaşlı müsahibimiz xalqımızın bu əziz bayramını çox sevdiyini bildirir və deyir: "Artıq iki ildir ki, Naxçıvanda yaşayıram. İlk dəfə keçən il Novruz bayramını burada qeyd etdim. Naxçıvanda bu bayramın necə coşqu, təntənə ilə keçirildiyinin şahidi oldum və bu il də bayramı burada keçirmək qərarına gəldim".

Həmçinin Novruzda süfrələrimizin bəzəyi olan ən dadlı təamlardan söhbət açan Emre bayramda xanımlarımızın bişirdiyi şirniyyat və yemək**lər**i xoşladığını, Naxçıvan çöçəsi və şəkərburanın isə çox sevdiyi bayram şirniyyatları olduğunu deyir.

Digər müsahibimiz Joseph Uwezele Okpamendir. Joseph də şəhərimizdə yaşayıb təhsil alan əcnəbi tələbələrdəndir. Əslən Nigeriyadan olan Joseph Naxçıvan Dövlət Universitetində Tibb ixtisası üzrə təhsil alır. Altı ildən çoxdur ki, Naxçıvanda yaşayan müsahibim bildirir ki, təhlükəsiz və insanları çox səmimi olduğundan burada yaşamağı sevir.

Bayram təəssüratlarından bəhs edən müsahibimiz deyir: "Novruz bayramı çox gözəldir. İlk dəfə 2019-cu ildə bu bayramda iştirak etdim. Hətta Naxçıvanqalada təşkil olunmuş bayram tədbirində çıxışım da oldu. İlk dəfə boyanmış yumurtaları görəndə isə çox təəccüblənmişdim. Çünki bu mənə çox maraqlı gəlirdi. Məncə, bu böyük bayramdır. Mən də görürəm ki, xaricdə yaşayan bütün azərbaycanlılar bayramı qeyd etmək üçün doğma Vətənə qayıdırlar".

Joseph deyir ki, ailəmə, yaxınlarıma bu bayram haqqında məlumat verdikdə onlar üçün də bu çox maraqlı gəlir.

Novruz şirniyyatlarından paxlavanı sevdiyini söyləyən müsahibimiz isti yemək**lər** içərisində ən çox şah plovu sevdiyini deyir.

Novruz adətlərindən və bayram xatirələrindən bəhs edən müsahibimiz yumurta döyüşdürməyi də çox sevdiyini söyləyir. Sonda Joseph xalqımızı əziz bayram münasibətilə təbrik edərək xoşbəxtlik və firavanlıq arzuladı.

Türkanə ƏSƏDOVA

İlaxırın Ordubaddakı adı – "Yeddiləvin"

Qədim diyarımızın sakinləri milli adət-ənənələrə bağlı olduğu üçün hər il Novruz bayramını böyük sevinclə qarşılayırlar. Novruz ürəklərdə saf duyğuların oyanması, yaxınların yad edilməsi, kin-küdurətin aradan qaldırılması, arzuların qanadlandığı, qəlbləri ilhamlandıran bayramdır.

Novruz öz milli atributlarının zənginliyi ilə digər bayramlardan xeyli fərqlənir. Bayram günü milli mətbəximizin növbənöv nemətləri hazırlanaraq süfrələrə düzülür. Bu bayram Ordubad rayonunun Vənənd kəndində böyük təntənə ilə qeyd edilir. Biz də "Şərq qapısı" komandası olaraq bayramı onlarla birgə qarşılamaq üçün üz tutduq sözügedən kəndə.

Vənənddə kənd ağsaqqalları, ağbirçəkləri, bir sözlə, kiçikdən-böyüyə hər kəs kənd mərkəzində qalanan tonqalın ətrafına toplaşıb bayramı bir yerdə keçirirlər. Uşaqlar sağa-sola qaçıb bayram sevincini yaşayır, kəndin qız-gəlinləri pay tutaraq al-əlvan xonçalar bəzəyib, tonqal başında cəm olub şən mahnılar səsləndirirlər. Biz də fürsətdən istifadə edib yaşı səksəni ötmüş kənd sakini Xalidə nənədən Novruzun ən çox sevilən adəti "Yeddiləvin" haqqında məlumat aldıq. O bildirdi ki, Ordubadda İlaxır çərşənbəyə həm də "Yeddiləvin" deyilir. Həmin gün evlərdə süfrə açılır və süfrəyə növbənöv şirniyyatlar, qərəzlər və bir çox bayram nemətləri düzülür. Bu nemətlər 7 adda olmalıdır. Müsahibimizin sözlərinə görə, bayram ərəfəsində yeni gəlin köçmüş qızlara bayram xonçası aparılır. Hər xonçaya isə adətə uyğun olaraq yeddi adda şirniyyat qoyulmalıdır. Və əlavə edir ki, çeşidin çoxluğunu göstərmək məqsədilə ona "yeddiləvin", yaxud da "yeddilövün"deyilir.

Süfrədə yeddi növ çərəz olması da şərtdir. Bayram süfrəsində adlarını çəkdiyimizdən əlavə xonçada noğul, nabat, püstə, badam, tut qurusu, kişmiş, fındıq, cəviz, badam ləpəsi, boyanmış yumurta, alma qurusu, gavalı qurusu, iydə və başqa çərəzlər olur.

Bayramda paxlava, şorqoğal, şəkərbura, sucuq, alana, Ordubad qayğanağı və səməni halvası da süfrədə gözoxşayan ləziz təamlardandır. Bunların hazırlanmasından danışan digər bir müsahibimiz Almaz Əsədova bildirdi ki, Vənənd kəndində cəvizli paxlava kürələrdə və ya təndirdə bişirildikdən sonra üzərinə gülab qatılmış şərbət əlavə edilərək süfrəyə qoyulur.

Şəkərbura üçün isə içərisinə çəkilmiş badam, cəviz və şəkər tozu qarışdırılaraq içlik hazırlanır, üzəri incə naxışlarla bəzədilir. Elə söhbətimizin bu yerində Almaz xanım öz əli ilə hazırladığı ləziz şirniyyatlarla yanaşı, bizə Ordubadın brendi olan limonlu çay təklif edir. Ətrafda səməni və boyanmış yumurtalardan başqa Ordubada xas olan gülab da qoyulduğunu görürük.

Bayramın ən sevimli adətlərindən olan yumurta toqquşdurulması, torba atmaq, səməni cücərtmək kimi maraqlı adətləri də bu kənd illərdir ki, qoruyub saxlayır. Biz də ənənəyə uyğun olaraq kənd meydanında qalanmış tonqalın üstündən üç dəfə hoppanaraq "Ağırlığım, uğurluğum odlara, yazda mənlə hoppanmayan yadlara", – deyərək köhnə ilin ağırlıqlarını üstümüzdən atırıq. Gün batana yaxın isə uşaqlarla bir araya gəlib, qapı-qapı gəzir, papaq atıb, gənclərlə niyyət edib qulaq falına çıxırıq.

Novruz bayramı münasibətilə biz də qonağı olduğumuz vənəndlilər və ümumilikdə, bütün xalqımızı təbrik edir, daim birlik və bərabərlik ideyaları altında yaşamağı diləyirik. Qoy bu bayram ölkəmizə sülh, əmin-amanlıq, evlərimizə xoşbəxtlik gətirsin, ocağımız yanar, süfrəmiz isə bolbərəkətli olsun!

Xaricdə yaşayan həmvətənlərimiz Novruzu böyük coşqu ilə qeyd edir

Milli dəyərlərinə hər zaman sadiq qalan xalqımız illərdir, Novruz bayramını qoruyaraq nəsildən-nəsilə ötürüb. Bəs zəngin adətləri ilə insanları daim sevgiyə, yoldaşlığa, paylaşmağa çağıran Novruz bayramını xaricdəki həmvətənlərimiz necə keçirirlər?

Biz də onlardan biri ilə telefon əlaqəsi saxlayıb bu barədə həmsöhbət olduq. Əslən naxçıvanlı olan Cəmilə Fərəcova bildirdi ki, 2013-cü ildən İspaniyanın Santiaqo de Kompostela şəhərində yaşayır. Burada yaşamağa qərar verməyinin əsas səbəbi təhsil və iş imkanlarının daha geniş olması idi. Doktorantura təhsili almaq üçün oraya gedib, hazırda Santiaqo və Viqo şəhərlərində ingilis dili müəllimlərinə koordinatorluq edir və təlimçi kimi çalışır. Deyir ki, Madrid və Barselona kimi böyük şəhərlərdə Azərbaycan icması Novruz bayramında hər il böyük şənliklər təşkil edir. Onlar buradakı xarici dost və tanışlarını da həmin şənliklərə dəvət edirlər. Cəmilə xanım da bir neçə dəfə Novruz bayramında belə böyük tədbirlərdə iştirak edib. Onun dediyinə görə, Novruz adət-ənənələrimiz xarici ölkə vətəndaşlarının da diqqətini çəkir. Onların ən çox marağına səbəb isə Novruz xonçasında bəzənən səməni və ətrafındakı paxlava, şəkərbura, boyanmış yumurtalar olur. Həmişə qonaqlar bunların nə məna daşıdığını soruşurlar.

Cəmilə xanım onu da qeyd etdi ki, ümumiyyətlə, xarici ölkələrdə Novruz şənlikləri və bunun kimi digər tədbirlər Azərbaycan mədəniyyətini, ənənələrini tanıtmaq, bizə öz köklərimizi və milli ruhumuzu yaşatmaq üçün çox əhəmiyyətlidir. Novruz şənliyində milli geyimlərimizdə rəqs edən, Azərbaycan dilində bayram mahnıları oxuyan həmvətənlərimiz əsl bayram ab-havasında adət-ənənələrimizi təbliğ edirlər. Hətta gələn xarici qonaqlara əvvəlcədən hazırladıqları Novruza aid atributlardan olan hədiyyələr verərək ölkəmiz və Novruz bayramı haqqında məlumatlar verirlər. Bu da hamı üçün xoş bir xatirə olaraq yadda qalır.

Müsahibimiz onu da bildirir ki, Novruz bayramında ən çox sevdiyi iş evi təmizləmək və səməni olan bayram süfrəsi hazırlamaqdır: "Evi təmizləmək alışdığımız, etməli olduğumuz bir haldır, lakin bunu Novruzda etmək mənim üçün fərqli məna kəsb edir: sən ruhunu yeniləyirsən, yenidən doğulursan, yeni üfüqlər və ümidlər doğulur. Bu mənada, Novruzun mənəvi və ruhsal tərəflərini görmək çox gözəl bir duyğudur. Eyni zamanda hər bir nemətin xüsusi məna daşıdığı bir bayram süfrəsi hazırlayarkən illərin dəyişdiyini, lakin milli ənənənin davam etdiyini görürsən. Biz də hər il olduğu kimi, bu bayram da ailə üzvlərimizlə birgə Novruz süfrəsi arxasına əyləşib dost və tanışlarımızı dəvət edir, onlarla bayram ab-havasını paylaşmağa çalışırıq. Burada Naxçıvandakı kimi süfrə hazırlamaq çətin olsa da, azərbaycanlı olaraq çalışırıq ki, öz milli ənənəmizə uyğun Novruz süfrəsi hazırlayaq".

Cəmilə Fərəcova deyir ki, İspaniyada yaşadığı üçün, bir tərəfdən, öz mədəniyyətimizi və adət-ənənələrimizi yaşatmaq ona çox böyük məmnuniyyət verir. Eyni zamanda bu ona Azərbaycanın Novruz bayramının dərin mənalarını başqalarına da çatdırmaq və onları bu möhtəşəm bayram haqqında məlumatlandırmaq imkanı yaradır. Sanki sən həmin ölkələrin vətəndaşlarına "Bizim də çox gözəl adət-ənənəmiz var", – deyə səslənmək və onlarla da bu gözəlliyi paylaşmaq istəyirsən: "Bu bayram bizim üçün yalnız adət-ənənələrin yerinə yetirilməsi deyil, həm də birlik və həmrəylik simvoludur. Bu bayramda bir-birimizə qarşı daha mehriban olmağımız, birliyimizi qorumağımız çox önəmlidir. Bu adətləri qorumaq xaricdə yaşayan azərbaycanlıların milli-mənəvi dəyərlərə olan sevgisinin təzahürüdür".

Bülbül QULİYEVA

Qanad açan arzuların, boy atan ümidlərin, sevinc dolu sabahların və yeni başlanğıcların ilhamı –

NOVRUZ

Gecə ilə gündüzün qucaqlaşdığı, torpağın nəfəs alıb çiçəklərdiyi, suyun saflaşıb bulaq kimi çağladığı baharın xoş nəğməsidir Novruz! O təkcə bayram deyil, həm də yurdun nəfəsi, elin səsidir. Əsrlərdən bəri bu sehrli bayram insanın ruhuna nur səpələyir. Elə ki bahar gəlir, çaylar, sular coşub-daşır, ağaclar torpaqla pıçıldaşır, Günəş sanki bir başqa mehribanlıqla sığal çəkir telimizə. Elə bu zaman anlayırsan ki, novruzgülünün ətrini duyduğun, torpağın hərarətini hiss etdiyin, günəşin şəfəqi ilə xumarlandığın Novruz günlərini yaşayırsan… Novruzun gəlişi təkcə təqvimin dəyişməsi deyil, həm də təbiətin insanla həmahəngliyidir.

Su üstündə paklaşan diləklər



Barışıq və birlik bayramı

Günəşin hərarəti ilə bərabər insan qəlbləri də isinməyə, buz bağlamış münasibətlər əriməyə başlayır bu bayramda. Axı Novruz yalnız təbiətin deyil, həm də insanların yenilənmə, barışma və bağışlama bayramıdır. Bu bayramda qəlblər sevgi, səmimiyyət və barış ruhu ilə dolur. Hər ev qonaq gözləyir, mehribanlıqla bayramlaşmaq üçün. Min naz-nemətlə süfrələr qurulur, bu süfrələrin ən dəyərli neməti isə dostluq, qardaşlıqdır. Böyüklər həmişə deyər: "Bayram günü küsülü qalmaq olmaz, yoxsa bütün il küsülü keçər". Bu inancın arxasında dərin bir həyat fəlsəfəsi dayanır. İnsan həyatı da bahar kimidir – yenilənmək, irəli getmək üçün köhnə yükündən, ağır duyğulardan azad olmalıdır. Səməni boy atdığı kimi, qəlblərdə də sevgi və mehribanlıq cücərməlidir. İnsan qəlbi də torpaq kimidir, inciklik və kin toxumları səpilsə, quru, solğun duyğular yetişəcək, amma sevgi və bağışlama toxumları səpilsə, orada səadət bitəcək. Küsülülərin barışması Novruzun ən gözəl adətidir.

Novruz süfrəsinin yeddi nişanəsi

Novruz bayramı yaxınlaşanda hər evdə bir canlanma baş verir. İnsanlar evi təmizləyir, paltarlarını yeniləyir, könülləri saflaşdırır və bayram süfrəsi açırlar. Bu süfrə bolluğun, bərəkətin, mənəviyyatın təcəssümüdür. Burada hər detalın öz mənası var, hər loxmada bir inanc, bir mədəniyyət yaşayır. Bəs bu süfrənin yeddi nişanəsi nədir?

Səməni – dirçəlişin yaşıl rəmzi

Süfrənin ortasında gözoxşayan yaşıl səməni boy göstərir. Sanki yazın ruhu süfrəyə qonub. O, torpağın oyanışını, yeni həyatın başlanğıcını, ümidin yaşıl işığını simvolizə edir. Analar onu sevgi ilə suvarır, uşaqlar isə belinə qırmızı lent bağlayaraq diləklər tutur: "Səməni, saxla məni, ildə göyərdərəm səni". O nəinki süfrəni, insan ruhunu da yaşıl bahar işığına bürüyür. Onun nazik, incə telləri elə bil, insana pıçıldayır: "Mən təbiətin oyanışıyam, mən həyatın yenidən başlanğıcıyam. Məni sulayan hər kəsin ömrünə bərəkət olaram". Səməni təkcə gözəllik və bərəkət deyil, o həm də ümidin və yeni başlanğıcların rəmzidir.

Novruz süfrəsinin bəzəyi

Şəkərbura, paxlava, badambura və qoğal… Novruz süfrəsindəki bu dörd şirniyyat dörd fəsli təmsil edir. Onların hər biri ailə ocağının istiliyinin, şirin və firavan ömrün tərənnümüdür. Bu nemətlərin hazırlanması təkcə bayram üçün hazırlıq deyil, həm də ailə üzvlərinin bir araya gəlməsi, yaxınlıq və dostluq bağlarının güclənməsidir. Hər bir dilim, hər bir qat keçmişlə gələcəyin birləşməsidir. Bu şirniyyatların hazırlanmasında əlin zəhməti, ürəyin isti niyyəti də vardır. Novruz süfrəsinin şirin payı şəkərbura, badambura və paxlavada min bir arzunun ləziz dadı var. Axı Novruz həm də şirinlik bayramıdır. Bir də Günəşin yer üzündəki təcəssümü də var ki, o da şorqoğaldır. Onun yumru forması, içindəki ədviyyat qatları bütün fəsilləri, ilin dövr etməsini, təbiətin sonsuzluğunu simvolizə edir. O sanki qışın soyuğunu qovub yerinə Günəşin istisini gətirir.

Al-qırmızı bayram yumurtası – yenidən doğuluşun rəmzi

Novruz bayramının hər atributu özündə bir mənanı, bir fəlsəfəni daşıyır. Səməni – həyatın başlanğıcını, paxlava, şəkərbura, qoğal – bolluğu və şirinliyi, tonqal – nur və təmizlənməni ifadə edirsə, qırmızı boyalı yumurta da öz xüsusi anlamı ilə Novruz süfrəsinin vazkeçilməzidir. O, həyatın, yenidən doğuluşun, müsbət enerjinin və qələbənin simvoludur. Onun rənglənməsi isə bayramın sevincini, şən əhvali-ruhiyyəni vurğulayır. Novruzda yumurtanın ən çox qırmızı rəngə boyanması təsadüfi deyil. Qırmızı həyatın, istiliyin, günəşin və gücün rəmzidir. Novruzda yumurta döyüşdürmək isə dostluq və qələbə kimi ifadə olunur. Bu, Novruz günlərində uşaqlar və böyüklər arasında maraqlı bir adət kimi yaşadılır.

Xonça – birlik və bərəkət

Novruz xonçası ailənin rifahı və birliyinin ifadəsidir. Xonça ətrafında toplaşan ailə üzvləri birlikdə bayramı qeyd edir, şirinliklərdən dadır və Novruzun ruhi dəyərini hiss edirlər. Novruz xonçası baharın, yeni ümidlərin və xoşbəxt gələcəyin xəbərçisidir.

Badam, fındıq, cəviz – məhsuldarlıq və güc

Novruz süfrəsində müxtəlif çərəzlərin olması da təsadüfi deyil. Badam, fındıq, cəviz bolluq və məhsuldarlığın rəmzi olmaqla yanaşı, həm də insanın güc və iradəsini təmsil edir. Əsrlərdir ki, xalqımız bu çərəzlərin bayram süfrəsində olmasının uğur gətirdiyinə inanır. Bu çərəzlər yalnız ləzzətli qəlyanaltılar deyil, torpağın insanlara verdiyi sərvət, bol bərəkət hesab olunur.

Su – həyatın özü

"Suyun bulanığı keçər, durusu qalar", – deyər böyüklərimiz. Su həyatın özü, axının rəmzidir. O, safdır, pakdır, şəffafdır. Süfrədə su varsa, deməli, evdə əmin-amanlıq, bolluq, xeyir-bərəkət də olacaq. Su həyatın başlanğıcı, varlığın ən təməl rəmzlərindən biridir. Novruz süfrəsində suyun olması, onun daim axıb yenilənməsi insan həyatının da dayanmadan davam etdiyini ifadə edir. "Su kimi ömrün uzun olsun" arzusu da buradan qaynaqlanır.

Şam – nur və işıq içində yeni başlanğıc

Gözlərimizi yumub bayram süfrəsini xəyalımızda canlandıraq. Bütün bu gözəlliklər içində bir işıq parlayır – şam. O təkcə süfrəni yox, qəlbləri də nurlandırır. O, pislikləri yox edən, xeyrə yol açan bir mayakdır.

Novruz süfrəsi bir nağıldır. Bu süfrə mədəniyyətin, inancların, tarixin və gələcəyə olan ümidlərin bir araya gəldiyi müqəddəs bir tablodur. Burada Günəşin istiliyi, torpağın bərəkəti, suyun şəffaflığı, həyatın isə öz axarı var.

Novruzda suya böyük hörmət var. İnsanlar səhər tezdən bulaqlara gedir, suyun üzərindən atlanır, sanki bütün dərdlərini arxada qoyur. Bulaq suyunu əllərinə alıb üzlərinə çəkirlər, inanırlar ki, su onları təzələyəcək, paklaşdıracaq. Su – həyatdır, su – insanın içindəki duruluğun əksidir. Novruzda suya toxunmaq, ruhun da su kimi aydın olmasına işarədir.

Papağa düşən arzular

Elə ki, axşam düşür, Novruz gecəsinin sehrli küləyi qapıları döyür. Uşaqlar həyəcan içində papaqlarını götürüb qapıların arxasında gizlənir. Papaq atmaq sadə bir oyun deyil, bu, ümidin sınandığı bir andır. Çünki hər papağın içində bir dilək var, hər evdən gələn bir pay, o diləyin gerçəkləşəcəyinə işarədir. Qapı açılır, papağa şirniyyat, qozfındıq qoyulur. Uşaq sevinc içində papağını götürüb qaçır. Bəlkə, bu onun uşaqlığının ən saf anlarından biridir, çünki Novruzda hər şey mümkündür, arzular gerçəyə çevrilir.

Tonqal qalxar qəm yanar, ümidlər çıraqlanar

Küçələrdə uşaqların gülüşü, qapılar arxasında qaynayan bayram təlaşı, göy üzünə doğru boylanan xonçalar… Amma Novruzun ən sirli, ən sehrli anı tonqalın alovlandığı məqamdır. Ocaq qalxır, alov dilim-dilim səmaya sarmaşır. Elə bil, od danışır – min illərin sirlərini pıçıldayır, yaddaşımızın dərinliklərində uyuyan qədim nağılları oyadır. Qaranlıq çökən kimi həyətlərdə, küçələrdə tonqalların tüstüsü ərşə qalxır. Alov dilləri göyə uzanır, insanların ürəklərindəki kədəri, ağırlığı yandırıb külə çevirir. Hər kəs bir-bir atəşin üzərindən atlanaraq: "Ağırlığım, uğurluğum bu oda!" – deyir. Bu atəş təkcə bir ocaq deyil. O, insanın ruhunu təmizləyən, gələcək üçün yeni yol açan bir işıqdır. O, sevginin, ümidin, yaşamaq eşqinin alovudur. O, keçmişin izlərini daşıyan bir yaddaşdır, babaların, nənələrin səsinə bürünən bir ovqatdır. Bu ocaq ilboyu içimizə yığılan dumanı külə çevirməkdir. Hər kəsin qəlbində bir arzu, bir pıçıltı var: "Bu bayram evimizə, qəlbimizə, ruhumuza işıq gətirsin…"

Novruz – tariximizin yadigarı, gələcəyə mirasımız

Novruz qışın sərtliyindən qurtuluşdur, qışın bahara ümidi kimi, insanın da arınmağa, yenidən başlamağa ümididir. Novruz ənənəsi bizə ulularımızdan qalan dəyərli mirasdır. O həm də bir xalqın dərin köklərinə bağlılığıdır. Bu bayram keçmişin səsi, gələcəyin işığıdır. Çünki Novruz təkcə təbiətin oyanışı deyil, insan ruhunun da baharıdır… Qoy bu Novruz elimizə-obamıza, yurdumuza-yuvamıza bolluq, bərəkət, sevinc, firavanlıq və xoş günlər gətirsin! Novruz bayramınız mübarək!

✍ **Gülcamal TAHİROVA**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2025-ci ilin aprel ayında vətəndaşların qəbulu cədvəli

№	Deputat	Tarix və yer	Əlaqələndirici şəxslər və əlaqə nömrələri
1.	1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu	16.04.2025, saat 10^{00}, Sədərək rayonu, Heydərabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Əhmədov Vətən Abbas oğlu, 050-453-14-49
2.	2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı	26.04.2025, saat 11^{00}, Sədərək rayonu, Dəmirçi Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Novruzov Elçin Abil oğlu, 060-569-45-73
3.	3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu	12.04.2025, saat 11^{00}, Şərur rayonu, Kürkənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51
4.	4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu	24.04.2025, saat 16^{00}, Şərur rayonu, Qarxun Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91
5.	5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı	15.04.2025, saat 11^{30}, Şərur rayonu, Xələc Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85
6.	6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı	08.04.2025, saat 11^{00}, Şərur rayonu, Qarahəsənli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Məmmədova Nuranə Arif qızı, 070-523-64-12
7.	7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu	16.04.2025, saat 10^{00}, Şərur rayonu, Sərxanlı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası 16.04.2025, saat 12^{00}, Şərur rayonu, Muğancıq-Müslüm Kənd Mərkəzinin binası	Bağırov Turqay Faiq oğlu, 060-550-20-20
8.	8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu	18.04.2025, saat 15^{00}, Şərur rayonu, Düdəngə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93
9.	9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu	10.04.2025, saat 15^{00}, Şərur rayonu, Mahmudkənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası 22.04.2025, saat 15^{00}, Şərur rayonu, Oğlanqala Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 Hüseynov Ənvər Ələsgər oğlu, 060-416-95-10
10.	10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı	14.04.2025, saat 15^{00}, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası	İsmayılova Mahı Arif qızı, 070-755-00-76
11.	11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı	15.04.2025, saat 15^{00}, Şərur rayonu, Gümüşlü Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39
12.	12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu	16.04.2025, saat 15^{00}, Şərur rayonu, Qışlaqabbas Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86
13.	13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu	18.04.2025, saat 15^{00}, Şərur rayonu, Danyeri Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03
14.	14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu	16.04.2025, saat 11^{30}, Kəngərli rayonu, Qabıllı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Seyidov Miramin Mirabbas oğlu, 050-865-90-90
15.	15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı	08.04.2025, saat 11^{00}, Kəngərli rayonu, Şahtaxtı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Məmmədova Vəfa Elman qızı, 060-491-30-96
16.	16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu	11.04.2025, saat 15^{00}, Kəngərli rayonu, Çalxanqala Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10
17.	17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu	17.04.2025, saat 15^{00}, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78
18.	18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu	08.04.2025, saat 15^{00}, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Axundov Simral Fərəc oğlu, 050-289-05-78
19.	19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı	24.04.2025, saat 10^{00}, Babək rayonu, Şəkərabad Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56
20.	20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu	14.04.2025, saat 11^{00}, Babək rayonu, Qahab Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25
21.	21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu	14.04.2025, saat 15^{00}, Babək rayonu, Sirab Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01
22.	22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu	16.04.2025, saat 11^{00}, Babək rayonu, Şıxmahmud Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95
23.	23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı	11.04.2025, saat 11^{00}, Babək rayonu, Cəhri qəsəbə 1 nömrəli tam orta məktəbin binası	Quliyev Emil Orxan oğlu, 077-545-85-90
24.	24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı	21.04.2025, saat 15^{00}, Naxçıvan şəhəri, Qaraçuq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Seyidli Sabirə Azər qızı, 099-308-00-47
25.	25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı	23.04.2025, saat 11^{00}, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Hüseynli Bəhriyə Məzayıl qızı, 060-387-07-77, 036-550-08-29
26.	26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu	14.04.2025, saat 16^{00}, Naxçıvan şəhəri, 6-cı məhəllə sakinləri, səyyar qəbul	Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85
27.	27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu	18.04.2025, saat 11^{00}, Naxçıvan şəhəri, 4 saylı Mənzil İstismar İdarəsinin inzibati binası	Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64
28.	28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı	16.04.2025, saat 16^{00}, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəbin binası	Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38
29.	29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu	25.04.2025, saat 15^{00}, Naxçıvan şəhəri, 6 saylı uşaq bağçasının binası	Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23
30.	30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı	16.04.2025, saat 15^{00}, Naxçıvan şəhəri, 5 saylı uşaq bağçasının binası	Əhmədova Arzu Rza qızı, 060-384-34-30
31.	31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu	30.04.2025, saat 15^{00}, Naxçıvan şəhəri, 14 nömrəli tam orta məktəbin binası	Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06
32.	32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu	11.04.2025, saat 11^{00}, Naxçıvan şəhəri, 48-ci məhəllə sakinləri, səyyar qəbul	Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86
33.	33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı	17.04.2025, saat 15^{00}, Naxçıvan şəhəri, Əliabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Əhmədova Arzu Rza qızı, 060-384-34-30
34.	34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı	09.04.2025, saat 11^{00}, Şahbuz rayonu, Nursu Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,	Rzayev Əli Firudin oğlu, 050-337-69-44
35.	35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı	11.04.2025, saat 11^{00}, Şahbuz rayonu, Güney Qışlaq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,	Adilzadə Adil Azər oğlu, 060-307-07-37
36.	36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu	25.04.2025, saat 16^{00}, Şahbuz rayonu, Sələsüz Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78
37.	37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu	17.04.2025, saat 10^{00}, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69, 077-569-43-65
38.	38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu	18.04.2025, saat 11^{00}, Culfa rayonu, Camaldın Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Əliyev Əli Şəmsəddin oğlu, 050-740-20-27 Canbaxşiyev Səməd Canbağış oğlu 060-252-15-19
39.	39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu	16.04.2025, saat 11^{00}, Culfa rayonu, Qızılca Kənd Mərkəzinin binası	Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42
40.	40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu	15.04.2025, saat 10^{00}, Culfa rayonu, Göydərə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Təhməzov Rafiq Rafiq oğlu, 060-406-07-77
41.	41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu	10.04.2025, 24.04.2025, saat 11^{00}, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası	Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43
42.	42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu	03.04.2025, 17.04.2025, saat 15^{00}, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası, 09.04.2025, saat 15^{00}, Ordubad rayonu, Aşağı Əndəmic Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53
43.	43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu	14.04.2025, saat 15^{00}, Ordubad rayonu, Vələver Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01, 557-37-59
44.	44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu	16.04.2025, saat 15^{00}, Ordubad rayonu, Aza kənd tam orta məktəbinin binası	Rzayev Elmir Elmar oğlu, 055-317-62-01
45.	45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı	21.04.2025, saat 12^{00}, Ordubad rayonu, Tivi Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası	Əhmədov Suat Yusif oğlu, 060-200-09-30, 077-573-75-00

Ali Məclis deputatlarının fevral ayında keçirdiyi qəbullarda 447 vətəndaş iştirak edib

2025-ci ilin fevral ayında VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 44 deputatı tərəfindən yerlərdə 57 dəfə vətəndaş qəbulu keçirilib. Bu görüşlərdə, ümumilikdə, 447 nəfər iştirak edib, 205 vətəndaş müraciəti qəbul olunub. İşlə təminat, sosial yardım, mülkiyyət hüququ və digər məsələlərlə bağlı olan müraciətlərin həlli istiqamətində işlər aparılıb, aid qurumlarla əlaqələndirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti

Düşünülmüş məqsədyönlü və uğurlu iqtisadi siyasət

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi düşünülmüş, məqsədyönlü iqtisadi siyasət nəticəsində Azərbaycan Respublikasında və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın bütün sahələrində yüksək nəticələr əldə olunmuş, sosial-iqtisadi inkişaf əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xeyli artmış, yoxsulluq səviyyəsi minimum həddə endirilmişdir.

Vüsal MƏMMƏDZADƏ
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı

"Zənnimcə, Azərbaycanın müxtəlif mühitlərdə özünü rahat hiss etməsinin əsas amillərindən biri ondan ibarətdir ki, üzərimizə düşənlərlə əlaqədar artıq xeyli iş görmüşük. Sabit iqtisadiyyat qurmuşuq, sabit siyasi sistemimiz var, insanların yaşayış səviyyəsini yaxşılaşdıran çoxlu sosial proqramlar həyata keçiririk, yoxsulluq səviyyəsini, təxminən, 5 faizə endirməyə nail olmuşuq və müxtəlif beynəlxalq aktorlarla güclü tərəfdaşlıq və əlaqələrlə müəyyən vasitəçi rolunu oynayırıq". Bu sözləri Davos İqtisadi Forumunda Çinin CGTN telekanalına müsahibəsində Prezident cənab İlham Əliyev bildirmişdir. Sevindirici haldır ki, dövlət başçısının ölkəmizdə apardığı sosial-iqtisadi siyasət Azərbaycanın bütün bölgələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilməkdədir. Aparılan uğurlu siyasətin nəticəsidir ki, 2024-cü ildə Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın bütün sahələrində yüksək nəticələr əldə olunmuş, sosial-iqtisadi inkişaf əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xeyli artmışdır.

2024-cü ildə Naxçıvan Muxtar Respublikasında 1 milyard 539 milyon 514 min 500 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2023-cü illə müqayisədə 3,1 faiz çoxdur. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcmi 2023-cü illə müqayisədə 2,5 faiz artaraq 3277,0 manata çatmışdır. İqtisadiyyatın bütün sahələrinə göstərilən hərtərəfli dövlət qayğısı sayəsində muxtar respublika iqtisadiyyatında özünəməxsus yeri olan özəl sektor özünün dinamik inkişaf tempini 2024-cü il ərzində də davam etdirmişdir. 2023-2024-cü illər ərzində özəl sektorun inkişafına dövlət dəstəyinin gücləndirilməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi ilə yanaşı, müxtəlif növ maliyyə dəstəyinin göstərilməsi kimi kompleks islahatların aparılması, yerlərdə yeni kiçik və orta sahibkarlıq subyektlərinin formalaşmasına münbit şəraitin yaradılması, sahibkarların və fiziki şəxslərin normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırmış, yeni iş yerləri açılmış, əhalinin maddi rifah halı yüksəldilmişdir.

Muxtar respublikanın təbii ehtiyatlarının yüksək olması iqtisadiyyatın bütün sahələri ilə yanaşı, sənayenin də inkişafında mühüm rol oynamışdır. Muxtar respublikada təbii xammal bazasının mövcudluğu, yeni sahibkarlıq subyektlərinin yaradılması, sahibkarlıq fəaliyyəti üçün əlverişli biznes mühitinin yaradılması sahəsində həyata keçirilən tədbirlər muxtar respublikada istehsal potensialının güclənməsinə də səbəb olmuşdur. 2024-cü ildə ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 467 milyon 196 min 300 manatlıq sənaye məhsulu istehsal edilmişdir. Ümumi istehsalın 87,0 faizi sənaye məhsullarının istehsalı, 13,0 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır. Sənayedə dövlət sektorunun payı 86 milyon 986 min 600 manat və ya 18,6 faiz, qeyri-dövlət sektorunun payı 380 milyon 209 min 700 manat və ya 81,4 faiz olmuşdur.

Ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi üçün dövlət başçısı cənab İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvan Muxtar Respublikasını da "yaşıl enerji zonası" elan etməsi bu hədəfə çatmağın mühüm istiqaməti kimi diqqət mərkəzində saxlanılır. Prezident cənab İlham Əliyev Davos İqtisadi Forumunda Çinin CGTN telekanalına müsahibəsində bildirmişdir: ***"Qazıntı enerji növlərinə malik olan ölkələrin məsuliyyəti əldə etdikləri gəlirləri "yaşıl texnologiya"ya və "yaşıl enerji"yə investisiya etməkdən ibarətdir. Məhz bunu edirik. İnvestorlar üçün yaxşı investisiya mühitini yaratdıq. 2027-ci ilə qədər olan hədəfimiz 2 qiqavat həcmində Günəş və külək elektrik enerjisini hasil etməkdir. 2030-cu ilə qədər isə bu hədəf 6 qiqavatdır. Bu, Azərbaycanda enerji sahəsində bir inqilab olacaqdır".*** Cənab Prezidentin qeyd etdiyi kimi respublikanın digər bölgələri ilə yanaşı, muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti burada ekoloji cəhətdən təmiz enerji istehsalına imkan verir. Qeyd etmək lazımdır ki, son illər ərzində muxtar respublikada ekoloji cəhətdən təmiz enerji istehsalı məqsədilə bir sıra addımlar atılmışdır. Xüsusilə yeni günəş və külək elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvanda istehsal edilən ümumi enerjidə bərpa olunan enerjinin payını artırıb. Cənab Prezident tərəfindən imzalanan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda əsas prioritetlərdən biri də elektrik enerjisi istehsalının və ixracının artırılması ilə bağlıdır ki, burada da əsas məqsəd "yaşıl enerji" istehsalıdır.

2025-ci il ərzində diqqət mərkəzində saxlanılan sahələrdən biri də kənd təsərrüfatı sahəsidir ki, bu da Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında aparıcı rola malikdir. Prezident cənab İlham Əliyevin bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsinə də diqqət və qayğısı nəticəsində məhsul istehsalçılarının müxtəlif növ subsidiyalarının artırılması, kənd əməkçilərinin təsərrüfata bağlılığını daha da artırmışdır. Belə ki, vətəndaşlar və sahibkarlar tərəfindən meyvəçilik, bitkiçilik, arıçılıq və heyvandarlıq sahələrinin inkişafına maraq artmışdır. Bunun nəticəsidir ki, 2024-cü il ərzində 48470,8 ton dənli və dənli-paxlalılar, 4272,7 ton dən üçün qarğıdalı, 25,6 ton dən üçün günəbaxan, 56,7 ton tütün (qurudulmuş), 0,6 ton sarıçiçək, 5 ton küncüd, 0,6 ton yerfındığı, 23321 ton kartof, 26084,9 ton tərəvəz, 11135,7 ton bostan məhsulları, 31649,2 ton meyvə və giləmeyvə, 6494,8 ton üzüm yığılmışdır. Bundan başqa, 2024-cü ildə diri çəkidə 22488,2 ton ət, 63245,7 ton süd, 69627 min ədəd yumurta, 913,7 ton yun, 1,1 ton barama istehsal olunmuşdur. 2024-cü ilin göstəricilərini 2023-cü illə müqayisə etsək görərik ki, ilbəil kənd təsərrüfatının ümumi məhsulunda artımlar müşahidə olunur. Belə ki, kənd təsərrüfatının ümumi məhsulu 2,0 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1,6 faiz, bitkiçilik məhsulları istehsalı 2,3 faiz artmışdır. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının bütün sahələrinə göstərilən dövlət dəstəyi hesabına muxtar respublikanın kəndlərində ailə təsərrüfatlarının yaranması və əldə etdikləri müxtəlif növ kənd təsərrüfatı məhsullarının həm daxili, həm də xarici bazarlara çıxarılması ilə nəticələnmişdir. Bu gün Azərbaycan Respublikası ərazisində, o cümlədən paytaxt Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı məhsullarının xüsusi maya dəyəri var və tələbat da gündən-günə artmaqdadır.

Ümumilikdə, bütün sahələr üzrə Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsinə baxdıqda görürük ki, muxtar respublikanın xarici ticarət dövriyyəsi 2024-cü il ərzində 125 milyon 622 min 70 ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 10 milyon 566 min 400 dollarını və ya 8,4 faizini ixrac olunmuş məhsulların, 115 milyon 55 min 670 dollarını və ya 91,6 faizini isə idxal məhsullarının dəyəri təşkil etmişdir. Əlavə olaraq muxtar respublika iqtisadiyyatının digər sahələrində də 2024-cü il ərzində yüksək göstəricilərə nail olunmuş və 2025-ci il ərzində də uğurlu iqtisadi siyasətin davam etdirilməsi və bir sıra layihələrin həyata keçirilməsi istiqamətində işlərin aparılması nəzərdə tutulmuşdur.

Sonda onu da qeyd etmək lazımdır ki, ölkədə tətbiq olunan iqtisadi yeniliklər və iqtisadi artımlar dünyanın inkişaf etmiş qabaqcıl ölkələri tərəfindən maraqla izlənilir və təqdirəlayiq qiymətləndirilir. Cənab Prezidentin Davos İqtisadi Forumuna dəvət alması bunun bariz nümunəsidir. Ölkə üzrə istər makroiqtisadi göstəricilər istər daxildə, istərsə də xaricdə aparılan siyasət və Azərbaycan Respublikasının suverenliyinin tam bərpa olunması Ali Baş Komandan cənab İlham Əliyevin gərgin və yorulmaz fəaliyyətinin nəticəsidir. Qısacası, Prezident cənab İlham Əliyevin ölkəyə başçılıq etdiyi dövrlərdə elə bir sahə yoxdur ki, orada dövlət başçısının diqqət və qayğısının izləri görünməsin.

Dinamik iqtisadi inkişaf öz bəhrələrini verməkdədir



Ümummilli Liderimizin siyasi yolunun uğurlu davamı Naxçıvanın ötən dövr ərzində daim irəli getməsini təmin edib. Muxtar diyarımızın ölkənin ən öndə gedən regionlarından birinə çevrilməsi, blokada şəraitində belə davamlı sosial-iqtisadi inkişafa nail olunma tendensiyasını gündəmə gətirib. İcrası uğurla reallaşdırılan ardıcıl Dövlət proqramları sayəsində Naxçıvan artıq enerji və keyfiyyətli məhsul ixracatçısı, beynəlxalq tədbirlərə ev sahibliyi edən və Şərqlə Qərbi birbirinə qovuşduran mühüm coğrafi məkan kimi dünya turizminə öz töhfəsini verən inkişaf etmiş diyar kimi tanınır. Bu gün artıq Naxçıvan Muxtar Respublikası dedikdə davamlı və dayanıqlı inkişaf yolunda olan, ixrac imkanlarını hər il daha da artıran müasir bir diyar göz önünə gəlir. Muxtar respublika artıq investorların diqqətini cəlb edən böyük iqtisadi potensiala çevrilib.

Gülcamal TAHİROVA

Muxtar respublikada sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsi olaraq yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, mövcud istehsal müəssisələrinin yenidən qurulması istiqamətində aparılan uğurlu islahatlar bu sahənin sürətli inkişafına zəmin yaradıb. Bir faktı da qeyd etmək yerinə düşər ki, hazırda muxtar respublikada məşğul əhalinin 85,3 faizi qeyri-dövlət sektorunda çalışır. Sənaye sahəsində məhsul istehsalının 73,2 faizi, əsas kapitala vəsait qoyuluşunun 45,5 faizi, rabitə xidmətinin 68,5 faizi, kənd təsərrüfatının 99,9 faizi, ticarət və ictimai iaşə xidmətinin isə 99,4 faizi özəl bölmənin payına düşür ki, bu da çox yüksək göstəricilərdir.

Yaradılmış münbit şərait bu gün ticarət əlaqələrinin genişlənməsinə, yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılmasına imkan verir. Məhz bunun nəticəsidir ki, muxtar respublikada rəqabətqabiliyyətli, yüksək alıcı rəğbəti qazanan məhsullar istehsal olunur.

Müasir dövrdə iqtisadi inkişafın mühüm göstəricilərindən biri xarici ticarət hesab edilir. Məhsul və xidmətlərin ixracı hesabına əhali rifahının təmin olunması günümüzdə iqtisadi siyasətin əsas hissələrindən birini təşkil edir. Nəticədə, yerli imkanlar hesabına istehsal olunan məhsullar və göstərilən xidmətlər yüksək alıcılıq qabiliyyətinə malik olur. Bütün bunlar isə diyarımıza valyuta gəlirlərini artırır. Bu baxımdan hazırkı dövrdə muxtar respublikamızdan xaricə göndərilən ixracyönümlü mal və xidmətlər sosial-iqtisadi inkişafa mühüm töhfələr verir. Nəzərə alaq ki, əvvəllər ilk mərhələdə keyfiyyətli məhsul istehsal etməklə əhalinin tələbatını ödəmək əsas şərt idisə, bu gün həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaq qarşıda duran əsas vəzifələrdən biridir. Türkiyə, İraq, Gürcüstan və digər ölkələrə muxtar respublikadan dəri, mebel, daş və beton məhsulları, sement, gips və gips lövhələr, mineral sular, vafli məmulatları və bir çox məhsul ixrac edilir. Təkcə cari ilin yanvar ayında muxtar respublikanın xarici ticarət dövriyyəsi 7 milyon 421 min 180 ABŞ dolları təşkil edib. Xarici ticarət dövriyyəsinin 388 min 820 ABŞ dollarını ixrac, 7 milyon 32 min 360 ABŞ dollarını idxal təşkil edib və 6 milyon 643 min 540 ABŞ dolları dəyərində mənfi saldo yaranıb.

Sistemli tədbirlər nəticəsində Naxçıvanda istehsal olunan məhsulların ixrac imkanlarının artması ilə yanaşı, iqtisadi əlaqələr də genişlənib. Qarşılıqlı razılaşmaya əsasən muxtar respublikada istehsal edilən və ya belə potensiala malik bəzi sənaye və kənd təsərrüfatı məhsullarına Türkiyə Respublikasına sərbəst ticarət imkanının verilməsi ixrac potensialımızı daha da gücləndirib. Bu gün Naxçıvan məhsullarına xarici marağın artmasının nəticəsidir ki, qardaş Türkiyə Respublikasında Naxçıvan məhsullarının satışı mağazaları fəaliyyət göstərir. Muxtar respublikada ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstək verilir. İstər ölkəmizdə, istərsə də xaricdə keçirilən mühüm iqtisadi tədbirlərdə, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslarda naxçıvanlı sahibkarların iştirakı təmin edilir.

Muxtar respublikada sahibkarlıq fəaliyyəti və ticarət üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası daha da genişlənib. Bu mənada, son illər tətbiq olunan ailə təsərrüfatları modelinin uğurlarından da bəhs etmək yerinə düşər. Muxtar respublika iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etdiyindən əməkqabiliyyətli əhalinin böyük bir hissəsi kəndlərdə məskunlaşıb. Kəndlərdə ailə təsərrüfatlarının yaradılması nəticəsində iş üçün şəhərə üz tutanlar elə yaşadıqları yerdə öz məşğulluqlarını təmin edə bilirlər. Bu isə ailə təsərrüfatçılığının, başqa sözlə desək, mikrosahibkarlığın inkişafına, eləcə də daxili bazarın yerli məhsullarla təmin edilməsinə və ixracyönümlü məhsulların istehsalının həcminin artmasına stimul yaradır.

Hər hansı bir müstəqil dövlətin iqtisadi gücü, hər şeydən əvvəl, onun enerji təhlükəsizliyindən asılıdır. Çünki enerji asılılığı olan yerdə nə sənayenin, nə də ki digər sahələrin inkişafından söz gedə bilər. Dönüb geriyə, müstəqilliyimizin ilk illərinə baxsaq, sənaye, xüsusilə enerji asılılığı cəhətdən zəif bir mənzərənin şahidi olarıq. O illər muxtar respublikamızın enerji sarıdan günümüzdən fərqli olaraq tamamilə idxaldan asılı bir dövrü idi. Ancaq günümüzdə daxili tələbatımızı ödəyib, enerjini ixrac edib və ondan da gəlir qazana biliriksə, heç şübhəsiz, bu, aparılan güclü iqtisadi siyasətin nəticəsidir. Bu gün muxtar respublikanın əlverişli iqlim şəraiti və coğrafi mövqeyi ekoloji cəhətdən təmiz, alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə enerji təhlükəsizliyinin təmin olunmasında, energetika sektorunda davamlı inkişafı təmin edib, bu sahədə müasir infrastruktur yaradılıb. Hazırda muxtar respublikada günəş və su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ümumi istehsalın 60-70 faizini təşkil edir. Bir sözlə, hidroenerji resurslarından və Günəş enerjisindən səmərəli istifadə muxtar respublikada enerji təhlükəsizliyini təmin etməklə yanaşı, qonşu ölkələrlə enerji mübadiləsi aparmağa da imkan verir. Bu gün Naxçıvan artıq qaranlıqda çırpınan, qonşudan gələn enerjiyə göz dikən bir məkan deyil. Bu gün artıq Naxçıvan istehsal etdiyi enerjini xaricə çıxarmaq imkanlarına malik zəngin bir diyardır.

Ümumiyyətlə, Naxçıvanın dünənindən bu gününə baxdıqda əldə olunan uğurları bütün sahələr üzrə müqayisə etmək mümkündür. Buradan isə belə nəticəyə gəlmək olar ki, əzmkarlıq, xalq və Vətən sevgisi qarşısıalınmaz qüvvədir və bu qüvvə xəyalını belə çətinliklə qurduğumuz bütün arzularımızı reallığa çevirib. Bir anlığa dönüb geriyə baxanda, müstəqillik illərimizin ilk dövrlərindən başlayaraq Naxçıvanın yaşadığı çətin, imtahan dolu günlərinin arxada qaldığını görəndə bir daha dərk edirik ki, bugünkü mənalı və rifah dolu həyatımızı dəyərləndirməliyik. Ümumilikdə isə həqiqət budur ki, Naxçıvan tarixin heç bir dövründə belə güclü və iqtisadi qüdrətə malik bir məkan olmayıb. Ulu diyar indi uzun bir yolu qısa zamanda addımlayan, gündən-günə çiçəklənən bir regiona çevrilib.

Yallı bu torpaqda ayaq tutub, bərkiyib

Şərur deyəndə ilk ağlımıza gələn yallı olur. Bu qədim torpağın əsrlərlə yaşatdığı və simvolu halına gəlmiş yallı. Dahi bəstəkar Üzeyir Hacıbəyli Şəruru "Azərbaycan folklor mədəniyyətinin beşiyi" adlandırırdı. Xalq artisti Əminə Dilbazi isə xatirələrində yazırdı: "Yallı mənbəyimiz Naxçıvanda – Şərur torpağındadır".

Şərurun barlı bağlarında, bərəkətli torpaqlarında da sanki yallının səsi duyulur. İnsanlar əl-ələ verib, zəhmət çəkib, torpaqdan min bərəkət hasil edirlər. Zəhmətin, birliyin, qarşılıqlı yardımlaşmanın, torpağa bağlılığın rəmzi əlamətləri folklora da yansıyıb. Beləcə, yallı bu torpaqda ayaq tutub, bərkiyib, məktəb yaranıb: yallı məktəbi.

Şərur Mədəniyyət Sarayının önündən bir səs ucalır. Bu səsə yoldan ötənlər ayaq saxlayıb tamaşa edir. Yaşlılardan ibarət "Nurani" Yallı Ansamblının nuraniləri ağır-ağır yallı gedir – "İrəvani" yallısı. Hər elementində bir məna, bir estetik zövq, bir millilik, tarixilik və birlik var. Şərur Xalq Yallı Ansamblı həm də Qərbi Azərbaycan yallılarını yaşadır. Biz bu yallını 2023-cü ildə Naxçıvanda keçirilən "Qərbi Azərbaycana qayıdış" konqres-festivalında da izlədik. Ruhumuzu ovsunlayan "İrəvani" yallısını "Nurani"nin ifasında izləmək ayrı zövq verirdi insana.

Milli irs məhz belə qorunur. Böyükdən-kiçiyə. Səhnəyə gənclərdən ibarət Şərur Xalq Yallı Ansamblı çıxır. Dərələyəzin "Ələyəz" yallısı ilə. Yenə səs ərşə qalxıb, insanın ruhuna birlik, mübarizlik, qayıdışa inam hissini qatır. Bir zamanlar Şərur-Dərələyəz qəzası İrəvan quberniyasının tərkibində olub. Qədim Azərbaycan torpaqlarında adət-ənənələr, folklor nümunələri də təbii olaraq yanaşı inkişaf edib, qorunub. Dərələyəz torpaqları, İrəvan mahalı tarixi gedişatda ermənilərin fitnəsi ilə qəsb olunsa da, öz tarixi torpaqlarından deportasiya olunanlar milli irsi abidə kimi qoruyub yaşadıblar. Azərbaycanın müxtəlif bölgələrində və daha çox qonşu Naxçıvanda məskunlaşan qərbi azərbaycanlılar el şənliklərində, müxtəlif mərasimlərdə adətlərini yaşatmaqla yeni nəslə ötürüblər. Və budur, biz bu gün yallının beşiyi Şərurda Qərbi Azərbaycana məxsus el yallılarını böyük şövq və sevgi ilə izləyirik. Şərur Xalq Yallı Ansamblının bədii rəhbəri, Azərbaycan Respublikasının Əməkdar artisti Əfsər Novruzov deyir ki, ötən il Batabatda keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresində kollektivin ifası rəğbətlə qarşılandı. Gələn qonaqlar da yallı gedənlərin sıralarına qoşuldu. Bu festival həm də sarsılmayan birliyimizin göstəricisi idi. Hamı bir oldu, birlik oldu. Bu şənliyin, əzəli yurd yerlərimizə çağırışın sədaları, əlbəttə ki, dağların o biri üzündə də əks-səda verdi...

Repertuarımızda olan "Ağbaba", "İrəvani", "Ələyəz", "Qənimo", "Hoynəri" yallılarıdır. Təbii ki, yeniləri də əlavə olunacaq. Məqsədimiz Qərbi Azərbaycan yallılarını yaşatmaq və təbliğ etməkdir. Qərbi Azərbaycan yallılarını sənətşünaslıq üzrə fəlsəfə doktoru Rauf Bəhmənli nota köçürüb və bizə də təqdim edib. Həmin notlar əsasında kollektiv çalışıb. Mənim özümün də ata-babalarımızdan yaddaşımda qalanlar var idi. Beləcə, birgə əməyin nəticəsi olaraq biz bu yallıları meydana çıxardıq və festivallarda da yüksək qarşılandı. Qarşıda duran əsas məqsədlərdən biri erməni plagiatına məruz qalmış yallıları da repertuara daxil etməkdir.

Bu qayıdış bir başqa olacaq. Silahla, topla, atəş səsləri ilə deyil, gül-çiçəklə, musiqi sədaları və yallı ilə... Bu gün Şərurda səsi ərşə bələnd olan yallı havaları İrəvanda, Dərələyəzdə, Göyçədə eşidiləcək. Yallının sıralarında birləşən əllər kimi birlik olduqca, qayıdışımız da bir o qədər tezləşəcək...

Cümə məscidində edilən dualarla qarşıladığımız İlaxır çərşənbə



Elimizə, obamıza bahar gəlib. Xoş gəlib, özü ilə səfalar gətirib. Azad torpaqlarımızdan əsən bahar yeli ovqatımızı xoş notlara kökləyib. İndi ürəyimizdə müqəddəs bir arzu varsa, o da gedib ilbəil dəyişən, yenilənən, düşmən bağrı çatladan o torpaqları ziyarət etmək arzusudur. Və bir də, təbii ki, Zəngəzur dəhlizi ilə paytaxta qovuşmaq.

Ta keçmişdən Boz ayı dörd çərşənbəyə bölən insanlar sonuncu – İlaxır çərşənbəni xüsusi şövqlə qeyd ediblər. Bütün məhəllələr bişirilən təamların xoş iyi, şirniyyatların ətri və uşaqların şən gülüşləri ilə süslənib.

Zərif örpəyini uzun, hörüklü saçlarına atmış Möminə xatın anamız yenə övladlarını yığıb başına. Hər kəs bayram libasına bürünüb Əcəmi seyrəngahının seyrinə çıxıb. Dövlət və hökumət nümayəndələri şənlik iştirakçıları ilə birgə bayramı qeyd edir, üzlərdə təbəssüm, gözlərdə sevinc. Tonqal qalanıb. Hamı ətrafına toplanıb, bir-biri ilə bayramlaşır. Milli geyimli qızlar Möminə ananı məmnun etmək üçün gələn qonaqları gülərüz qarşılayır, bayram şirniyyatları təklif edirlər. Dədə Qorqudun duaları, Kosa və Keçəlin məzhəkəsi ilə məclis rövnəqlənir. Xalq mahnılarının, Şərur yallısının, milli rəqslərin sehrinə dalıb Möminə ana. Hər tərəf ala-yaşıla bürünüb. Möminə ana gülür, övladlarını belə xoşbəxt gördükcə. Təzə paltarını geyinib gələn qızlar, oğlanlar Şərqdə qadının şərəfinə ucaldılan ilk abidənin önündə şəkil çəkdirir, Möminə anaya sevgilərini ifadə edirlər.

Belə gözəl bir gündə – İlaxır çərşənbədə yol gedər Ordubada. Ordubad da bayram libasını geyinib qonaqpərvərliyini sərgiləmək üçün çıxıb qonaqların pişvazına. Hər kəs sevincli və həyəcanlıdır. Bu gün Ordubadda ikiqat bayramdır.

Ordubadlılara bayram töhfəsi – Cümə məscidi qapılarını açdı

Ordubadlılar tarixən milli dəyərlərə sahib çıxıb, onu göz bəbəyi kimi qoruyublar. Novruz Ordubadda fərqli keçirilər. Bu, fərqlilikdir ki, illərdir, hər bayram Ordubad qonaq-qaralı, çal-çağırlı olar. Milli dəyərlərə sahib çıxdıqları kimi mənəvi dəyərlərə də qədim yurd yerinin sakinləri həssaslıqla yanaşar, qayda-qanunlara riayət edərlər. Ordubad məscidləri Naxçıvanın tarixi abidələr siyahısında xüsusi bir səhifə təşkil edir. Muxtar respublikada ən çox məscid və dini ziyarətgah sayı da elə Ordubaddadır. Cümə məscidi insanların ən sıx toplaşdığı ibadətgahdır. Şəhərin baş meydanında yerləşən məscid onun arxitekturasına da xüsusi görkəm və tarixilik bəxş edir. Bu baxımdan Cümə məscidi şəhərə gələn turistlərin hər zaman diqqət mərkəzində olub. Memarlıq abidəsinin qapısı üzərindəki daş kitabədə I Şah Abbasın nəsx xətti ilə beş sətirlik fərmanı həkk edilmişdir. 1604-cü ilə aid olan bu fərman şəhər əhalisinin bir sıra vergilərdən azad edilməsi haqqında mətndən ibarətdir. XVII əsrə aid məscid binası özündə həm də yüksək memarlıq və sənətkarlığı birləşdirir.

Öz memarlıq quruluşu ilə bir əzəmət təsiri bağışlayan bu abidə bərpadan sonra martın 18-də istifadəyə verildi. İlaxır çərşənbə müqəddəs Ramazan ayında dini dəyərlərə xüsusi həssaslıqla yanaşan ordubadlılar üçün Cümə məscidinin istifadəyə verilməsi ilə əlamətdar oldu. Dualar edildi.

İnsan mənəviyyatının paklığında, ucalığında pərvəriş tapır milli dəyərlər. Dəyərlər bir xalqın hansı mədəniyyətə malik olmasının ən ali göstəricisidir. Milli dəyərlər mənəvi dəyərlərlə birləşəndə özünə əbədiyyət qazanır və o xalqın milli kimliyinin pasportuna çevrilir.

Milli-mənəvi dəyərlərin qorunmasının vacibliyi bu gün dövlətin münasibətində də öz əksini tapır. İlaxır çərşənbə günündə ordubadlıların səbirsizliklə gözlədiyi Cümə məscidinin açılışı, edilən dualar xoş mərama xidmət edir. İnsanlığa, humanizmə xidmət, dəyərlərə hörmət isə Tanrı dərgahında müstəcəbdir.

✍ **Ruhiyyə RƏSULOVA**

102 yaşlı Misri nənə – Qərbi Azərbaycandan Naxçıvana uzanan ömür yolu

Ömürboyu çoxlu çətinliklərlə qarşılaşan və hər birinə iradə ilə sinə gərən Misri Quliyeva 102 yaşında tarixə şahidlik edən bir insan olaraq bizimlə söhbət edir. Onun həyat hekayəsi təkcə özünün deyil, həm də Azərbaycanın bir çox nəslinin həyat yolunun izlərini daşıyır.

Misri nənə 1923-cü ildə Qərbi Azərbaycanın Qəmərli rayonunun Torpaqqala kəndində dünyaya gəlib. Uşaqlıq və gənclik illərinin bir hissəsi burada keçib, lakin 1948-ci ildə ailəsi ilə birlikdə ermənilərin təzyiqləri səbəbindən Şərur rayonuna köçməyə məcbur olub.

"Bizi orada sıxışdırırdılar, yaşamağa imkan vermirdilər. Yoldaşım Yusif və qızımız Müşkünazla birlikdə Şərura, Çəmənli kəndinə köçdük. Bu bizim üçün yeganə çıxış yolu idi", – deyə Misri nənə o illəri ah çəkərək xatırlayır.

İkinci sinfə qədər təhsil alan Misri nənə məktəbin ermənilərin yaşadığı ərazidə olması səbəbindən təhsilini davam etdirə bilməyib. Qızların təhsil almasına icazə verilmədiyi üçün o da təhsilsiz qalıb. Lakin buna baxmayaraq, o, hər zaman müstəqil düşüncə və öz əməyi ilə həyatını qurmağa çalışıb.

"İkinci sinifdən sonra bizə oxumağa icazə vermirdilər. Oxuduğum məktəb ermənilərin sıx məskunlaşdığı yerdə idi. Təhsilim yarımçıq qaldı, amma həyat davam edirdi," – deyə Misri nənə qeyd etdi.

Misri Quliyevanın həyatında zəhmət önəmli bir yer tutub. Şərur rayonuna köçdükdən sonra kolxozda sağıcı kimi işə başlamış və orada çalışaraq ailəsinin dolanışığına köməklik etmişdir. Kolxozda işlədiyi vaxtlar 15 iribuynuzlu heyvan təsərrüfatla məşğul olması üçün ona verilib.

"Həyatımın çox hissəsi əmək üzərində qurulub. Kolxozda işləyərkən hər şey əl ilə edilirdi, çox çətin idi. Amma biz heç vaxt çalışmaqdan qorxmadıq", – deyə Misri nənə əlindəki gənclik fotosuna baxaraq gülümsünür.

7 övlad anası, 15 nəvə və 8 nəticə... Söhbət zamanı Misri nənənin övladları və nəvələri böyük bir diqqətlə söhbətimizi izləyir, nəticələri isə ətrafımızda qaçaraq oynayırdı. Misri nənənin xatirəsindən silinən hadisələri ailə üzvləri xatırladır və söhbətimizi davam etdirirdi...

Misri nənə uzun ömründə İstanbul və İran kimi bir çox yerə səfər edib. Onun dediyinə görə, İranda xalasını tapmaq və illər sonra ona qovuşmaq onun həyatındakı ən yaddaqalan anlardan biridir. O, uşaq yaşlarında xalasının İrana aparıldığını və illər sonra övladları ilə birlikdə İrana gedərkən onu tapdığını bildirir. Həmin hadisəni Misri nənə belə xatırlayır:

"Uşaq vaxtı mənə deyirdilər ki, xalam uşaq yaşlarından İrana aparılıb. Oğlanlarım da məni İrana aparan vaxt orada onu tapdım. O anı heç vaxt unuda bilmərəm".

Bizim gəlişimiz zamanı Misri nənə "Şərq qapısı" qəzetindəki ilk çıxışı olmadığını, lakin çıxış etdiyi həmin tarixi dəqiq xatırlamadığını söylədi. Bu dəfə isə qəzetimizin gənc jurnalisti olaraq onunla söhbət etmək mənə qismət oldu.

Misri nənənin həyatı, keçdiyi yollar, təzyiqlərə, çətinliklərə qarşı göstərdiyi dözüm və ailəsinə olan sevgisi onun bir ömür boyu mübarizəsini və iradəsini göstərir. "Şərq qapısı" olaraq bu cür dəyərli insanların həyat yolunu oxucularımıza çatdırmaqdan böyük qürur duyuruq.

✍ **Rafiq TƏHMƏZ**

Ümid dolu ürəklərin ilham fəsli, yaxud zəhmət ətirli yaz...

İki fəslin kəsişdiyi – qışın şaxta-boranının tədricən başa çatdığı, yazın ilıq nəfəsinin duyulduğu bu günlərdə insanın da ürəyində kök salmış arzulara, istəklərə çatmaq həvəsi çaylar kimi coşur, sellər kimi daşır. Rayihəsini yaz mehinin qanadlarıyla ətrafa yayan çiçəklərin şəhərimizi al-əlvan rənglərə boyamasına sayılı günlər qalır. Baharın müjdəçiləri olan quşların cəh-cəhi təbiətin nazlı gəlini olan yazın cilvəli gəlişindən xəbər verir. Təbəssümlə boylanan Günəşin ilıq nəfəsi ana torpağı qış yuxusundan oyadır. Qışın sərt nəfəsindən yorulmuş torpaq canlanır, ağaclar tumurcuqlayır, insanlar da təbiətlə birlikdə dəyişir, onların da qəlbində yazın ilk çağırışları eşidilir.

İnsanların xoşbəxt, sevinc dolu səsləri duyulur, parklarda uşaqların şən gülüşləri ətrafı bürüyür. İnsanlar uzun qışın yorğunluğunu atıb açıq havaya çıxır, Günəşin ilıq nəfəsində şəfqət tapırlar. Yazın gətirdiyi canlılıq hər kəsi hərəkətə gətirir. Ancaq yaz sevinclə birgə özü ilə həm də qayğı gətirir. Bağ-bağçada da yazın nəfəsi duyulur. Kəndlilər torpağa toxum səpir, bağbanlar ağacları budayır, çiçəkləri becərirlər. Ağaclar yenidən doğan yarpaqları ilə örtülür, çiçəklər öz gözəlliklərini sərgiləyir və quşlar səmada öpüşən Günəş şüaları ilə rəqs edir. Hər addımda səmimi sevincin izi hiss olunur.

Ruzi-bərəkətin bünövrəsi qoyulan yaz fəsli, nemətlər bolluğu yaradan, torpağa bağlı, əkinçi, biçinçi, heyvandar insanların qayğılı günlərinin başlandığından xəbər verir. Türk dünyasının ulu ozanı Dədə Qorqud zamanında əbəs yerə "Əgər torpağı qorumursansa, onu əkib-becərməyə dəyməz, əgər əkib-becərmirsənsə, onu qorumağa dəyməz", – deməyib. O mənada ki, ulu Dədə Qorqudumuz bu cümlə ilə torpağın hansı baxımdan əhəmiyyətli olduğunu çatdırıb. Bəli, qoruduğun torpağı mütləq əkib-becərməlisən, yaxud da əkib-becərdiyin torpağı mütləq qorumalısan. Torpağı sevmək, qorumaqla yanaşı, həm də onun nazını çəkmək ulularımızdan bizə miras qalıb. İnsanlar ta qədimdən torpağa ruzi-bərəkət yeri kimi baxıb, ona baş əyib, alın təri axıdıb. Bu qiymətli sərvətdən lazımınca bəhrələnən, onu özünə iş yeri hesab edən insanları da torpaq yanıltmayıb. Onlara sağlam can, bol ruzi-bərəkət verib. Atalarımız əbəs yerə torpağı misal gətirərək deməyiblər: "Sən mənə tər ver, mən sənə zər verim!" Əlbəttə ki, əziyyət çəkən bəhrəsini də görür. Əkinçi zəhməti bəhrə verir, torpaq ona baş əyənə səxavətini əsirgəmir, bərəkətini birə min edir.

Elimizin müqəddəs bayramı Novruza qədər olan İlaxır çərşənbələr də elə yazın möcüzəvi oyanışı ilə başlayır. Bu çərşənbələr el arasında "əziz günlər" kimi dəyərləndirilir. Novruzaqədərki günlər həm də evlərdə təmizlik işlərinin aparıldığı dövr hesab olunur. Bu günlərdə bayrama hazırlıq işləri görülür, həyət-baca səliqə-sahmana salınır. Bu mənada, yaz öz gəlişi ilə daha çox qadınların qayğılarını artırır. Evdə bahar təmizliyi başlayır. Qışın ağır yorğunluğunu üzərindən atan ev yenidən nəfəs alır. Qadınlar qışın soyuq nəfəsini silib süpürür, evinin hər küncünü yaz təravəti ilə doldururlar. Torpaq ana oyandıqca qadının bərəkətli əlləri ona toxunur, o isə naz-nemətə yeni həyat bəxş edir. Əkilən çiçəklər baharın gözəlliyini evlərə daşıyır, bostan işləri başlayır. Bir toxum torpağa düşür, cücərir, böyüyür – elə qadınların sevgisi kimi… Yaz qayğı ilə bərabər qadınlara sevinc də gətirir. Novruz bayramı ilə birlikdə süfrələr bərəkətlənir, ailələr bir araya gəlir, ürəklər isinib yaxınlaşır. Səməni cücərir, ümidlər yenilənir, qəlblərdə yeni arzular doğur.

Bahar, sadəcə, bir fəsil deyil, yenilənmənin, paklaşmanın, həyat eşqinin və kainata sevginin rəmzidir. Yazın gəlişi ilə arzular da yenilənir, sonsuz ümidlər doğur. Küskün qəlblərə mərhəmət hissi dolur, insanlar yeni başlanğıclar üçün cəsarət tapır. Bahar təkcə təbiətin deyil, insanın ruhunun da yenilənmə vaxtıdır. O, insanlara yaşamaq eşqi, dünənin bu gündən daha gözəl olacağına inam bəxş edir. Çünki yaz ümid dolu ürəklərin ilhamıdır, həyatın başlanğıcı, sevginin özüdür…

✍ **Gülcamal TAHİROVA**

Naxçıvan bazarlarında Novruz təlaşı





Qədim Odlar yurdunun ayrılmaz tərkib hissəsi Naxçıvan bu gün bayram ab-havasına bürünüb. Həmişə təmiz görkəmi ilə qürur duyduğumuz şəhər bu günlər daha təmiz, daha səliqəli görünür. Yolumuzu çoxlarının "Köhnə bazar" kimi tanıdığı ünvana salmışıq. Çünki bu ərəfədə bazarın daha da zəngin olduğuna öyrəşmişik. Rəngarəngliyi ilə gözoxşayan, min bir naz-nemətin olduğu piştaxtalardan həm də baharın simvolu – incə belinə qırmızı kəmər sarınmış, yaşıl donlu səməni də boylanır.

Yenə sıralanıb alın təri ilə evinə çörək aparmağa çalışan zəhmət adamları. O adamlar ki artıq bir-birinə doğmalaşıb sanki bir ailənin nümayəndəsinə çevriliblər. Baharın gəlişi ilə açılmış könüllərin müsbət aurası çöküb çöhrələrə. Şirin bir həyəcan, tələş hiss olunur qələbəlikdə. Bayramda ən gözəl süfrəni açmaq üçün dəridən-qabıqdan çıxan xanımlarımızın tələşidir bu. Axı xalqımızın ən əziz bayramıdır Novruz!

Bu bazarın alıcıları da sanki tanış simalardır. Həmişə ən yaxşı məhsulları seçərək evinin azuqəsini daşıyan alıcılar da satıcılarla doğmalaşıb artıq. Şən söhbəti, gülərüzü ilə müştərisinin istədiklərini torbalara yığan Məhəmməd Məmmədova yaxınlaşır, bayram bazarına hansı məhsulları gətirdiyini öyrənirik. Şahbuz rayonunun Qızıl Qışlaq kənd sakini Məhəmməd Məmmədov hər həftəsonu bura gələrək öz zəhməti ilə ərsəyə gətirdiyi məhsulları alıcılara təqdim etdiyini söyləyir və əlavə edir: "Ailə təsərrüfatçısıyam. Şahbuz rayonunun ən gözəl turşuları, kompotları, mürəbbələri buradadır. Həyətimizin cəvizi, fındığı, alması, heyvasını tədarük edərək bazara çıxarırıq. Alıcı qüvvəsi də yaxşıdır. Ən çox tələbat bayram məhsullarınadır. Belə ki, bu günlərdə daha çox çərəzlərin, meyvələrin, baldırğan, çaşır kimi turşuların satışını edirik".

Həmçinin qeyd etməliyik ki, müsahibimiz müxtəlif dərman bitkiləri, doşab, yumurta və sair məhsullar da satır.

Bu bazara bayram günlərində muxtar respublikanın bir çox bölgələrindən insanlar satıcı və alıcı qismində gəlir. Bayram günlərində onların əkib-becərdikləri məhsullar evimizdə bişən ən dadlı yeməklərin özəyini təşkil edir.

Bu bayram həm də bolluğun, bərəkətin, ruzinin rəmzidir. Biz də burada işləyən zəhmət adamlarının bayramını təbrik edir, onlara bol ruzi arzu edirik. Bayramınız mübarək!

✍ **Türkanə ƏSƏDOVA**

Naxçıvan şəhərində Xalq artisti Gülyaz Məmmədovanın açıq hava konserti keçirilib



Naxçıvanda keçirilən "Baharfest" çərçivəsində Əcəmi seyrəngahında unudulmaz musiqi gecəsi baş tutub. Festivalın ilk axşamında səhnəyə çıxan Azərbaycanın Xalq artisti Gülyaz Məmmədova açıq hava konserti ilə tamaşaçılara möhtəşəm anlar yaşadıb.

Zövqlə seçilmiş repertuar və canlı ifa festival iştirakçıları tərəfindən böyük coşqu ilə qarşılanıb. Musiqi dolu gecə bayram əhvali-ruhiyyəsini daha da yüksəldib.

Naxçıvan Dövlət Universitetində Novruz şənliyi keçirilib

Bədii rəhbəri və rejissoru Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri Gülxarə Əhmədova olan Novruz şənliyi Naxçıvan Musiqi Kollecinin "Nağara" ansamblının "Azərbaycan ritmləri" kompozisiyası ilə başlanıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək Novruzun xalqımızın qədim adət-ənənələrini özündə birləşdirən müqəddəs bir bayram olduğunu vurğulayıb.

Sonra Novruz tonqalı alovlandırılıb və hər kəs tonqal ətrafında dövrə vuraraq "Tənzərə" yallısı ilə rəqs edib.

Şənlik çoxsaylı rəngarəng və ənənəvi Novruz təqdimatları ilə diqqət çəkib.

Elan

Naxçıvan Bələdiyyəsi Naxçıvan şəhərində elektrik direklərinin təmir olunması ilə bağlı müsabiqə elan edir. Müsabiqənin şərtləri ilə Naxçıvan Bələdiyyəsinə yaxınlaşmaqla məlumat əldə edə bilərsiniz. 3 aprel 2025-ci il tarix saat 12⁰⁰-a qədər müsabiqə ilə bağlı təkliflərinizi təqdim edə bilərsiniz. Əks təqdirdə sonradan müsabiqə ilə bağlı verilmiş təkliflər qəbul edilməyəcəkdir.

Ünvan: Kazım Talıblı 20, telefonlar: (036)544-53-31, (036)545-58-89

İtmişdir

Məmmədov Mehman Abdulla oğlunun adına olan sürücülük vəsiqəsi və "Hyundai Tucson" markalı nəqliyyat vasitəsinin (75-BX-013) qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Türkeş kəndindən Məmmədov İldırım Nəsir oğlunun adına olan JN-86A nömrəli, "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 86

Nömrəyə məsul: **Nail Əsgərov, Gülcamal Tahirova, Cavanşir Bağırlı**
Dizayner: **Lətif Zeynalov**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.